

“Tayhu Forumu dünyada mədəniyyətlərarası dialoqa öz əhəmiyyətli töhfəsini verir”

Səhifə 3



Səs

№ 186 (6386) 13 oktyabr 2021-ci il. Qiyməti 40 qəpik

# Qalib xalqın müzəffər lideri



Səhifə 8-9

Bax 3

## Erməni politoloq: “Artıq Qarabağ məsələsi yoxdur”

”Bir neçə gün əvvəl regionda mühüm hadisə baş verib, lakin o diqqətdən kənarda...

Bax 4

## Mili Məclisdə ”Müstəqillik Günü haqqında” qanun layihəsi qəbul edilib

Oktyabrın 11-də Milli Məclisin payız sessiyasında növbəti plenar...

Bax 12

## Azərbaycanda islam modeli: müsəlman dünyası üçün etalon!

Azərbaycanda dinə olan münasibət daim özünəməxsus özəllikləri ilə seçilib və demək...

## Ukraynalı bloger: “Prezident İlham Əliyevin uğurlu siyasi və iqtisadi kursu Azərbaycanı regionda söz sahibinə çevirib”



Bax 2



## Taqib Şaker: “Prezident İlham Əliyev yalnız müdrik dövlət xadimi deyil, həm də mahir diplomat və qalib sərkərdə olduğunu göstərdi”

Səhifə 6



## Məktəblərdə kişi müəllimlərin sayı sürətlə azalır - Səbəb nədir?



## Çörəyin qiyməti qalxır?

# Ermənistanı soyuq və qaranlıq qış gözləyir



Səhifə 10

## Messi bunu bacaran ilk Cənubi amerikalı futbolçudur



Səhifə 16

Futbol üzrə Argentina millisinin futbolçusu Lionel Messi DÇ-2022-nin seçmə mərhələsində Uruqvayla matçda (3:0) daha bir rekord qırıb. Qol.az xarici...



## "Aşiq olmaq bir insanla fərqli bir dünyaya sahib olmaq deməkdir"

“Kanal D”dəki ”Baht Oyun”u serialının Tuğçesi Aslı Sümen, ”Women Shine” jurnalına verdiyi müsahibədə aşiq olduğunu və xoşbəxt olduğunu söyləyib. SİA xarici mətbuata istinadən xəbər verir ki, aktrisa bu barədə açıqlama verib. O, ”Sevgi gözəldir. Çox güclü hissdir. Aşiq olmaq bir insanla fərqli bir dünyaya sahib olmaq deməkdir. Bu böyük...

Səhifə 16



## Serjik qumarda 100 milyon dollar uduzub!

5

”2008-2017-ci illərdə Ermənistan prezidentinə məxsus olan təyyarə yüksək rütbəli məmurlarla birgə və xidməti ehtiyac olmadan dövlət hesabına...




## Rusiyalı ekspert: “İranın Qafqazda təsirini itirməsi Tehranı qıcıqlandırır”

15

*”Paris Ermənistandakı siyasi qüvvələri revanşist ritorikaya sövq edir və ”Türk təhlükəsi” ilə mübarizədə kömək vəd edir. İran da eyni...*

# Prezident İlham Əliyev Türkiyənin ətraf mühit və şəhərsalma nazirini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Türkiyə Respublikasının ətraf mühit və şəhərsalma naziri Murat Kurumu qəbul edib. AZƏRTAC xəbər verir ki, nazir Murat Kurum Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.***

Görüşdə ölkələrimiz arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Türkiyənin ətraf mühit və şəhərsalma nazirinin ölkəmizə səfərinin Azərbaycan və Türkiyənin müvafiq qurumları arasında əlaqələrin genişləndirilməsinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

Söhbət zamanı işğal dövründə ermənilərin Azərbaycan torpaqlarında təbiətə böyük ziyan vurması, meşələri kütləvi surətdə qırması, çayları çirkləndirməsi barədə danışıldı. Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## MİSİR PORTALI:
## Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi reallıq yaradıb

**Azərbaycan Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıq yaradıb. Prezident İlham Əliyev bəyan edib ki, Ermənistan daha 30 il işğalı davam etdirmək istəyirdi və İkinci Qarabağ müharibəsində Azərbaycanın Qələbəsi buna son qoydu. AZƏRTAC xəbər verir ki, bu fikirlər Misirin "Rayetmısr" portalında yayımlanmış məqalədə yer alıb.**



Jurnalist Məhəmməd Rafaat Fərağın yazısında qeyd olunub ki, Prezident İlham Əliyev işğaldan azad olunmuş Xocavənd rayon ictimaiyyəti ilə görüşündə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qətnamələrini öz gücü ilə yerinə yetirdiyini, ərazi bütövlüyünü bərpa etdiyini söyləyib. O vurğulayıb ki, ermənilərin tarixi də, keçmişi də, dövlətçiliyi də, mifologiyası da saxtadır. Sadəcə olaraq, dünya erməniliyi yaşadığı ölkələrdə elə bir yalan rəy yaradıb ki, sanki Ermənistan əhalisi əsrlər boyu burada yaşayıb. Hadruta ermənilər İrandan XIX əsrdə köçürülüblər.

Məqalədə qeyd olunub ki, Azərbaycan Ordusunun müharibədə Qələbəsi onun düşmənin silahlı qüvvələrindən hərbi və texnoloji baxımdan üstünlüyü ilə əlaqədardır. Belə ki, bütün dünya 44 günlük döyüşlərdə Azərbaycan PUA-larının erməni ordusunun zirehli texnikasını necə məhv etdiyinin şahidi oldu. Köhnə sovet hərbi texnikası, istehkamlar Ermənistan ordusunu darmadağın olmaqdan xilas edə bilmədi. Azərbaycanın hərbi aviasiyası düşmənin 2 milyard dollardan artıq dəyəri olan hərbi texnikasını sıradan çıxarmağa müvəffəq oldu.

Müəllif yazır ki, Azərbaycan Ordusu hərb tarixində ən müasir silahlardan və texnologiyalardan istifadə edərək öz itkilərini minimuma endirdi və dünyanın müharibə doktrinasına yeniliklər gətirdi. Prezident İlham Əliyev Hadrut qəsəbəsinin azad olunmasını tarixi hadisə adlandırıb və əlavə edib ki, ermənilər üçün gözlənilməz olan bu hərbi taktikadan sonra digər yaşayış məntəqələri də düşməndən geri alınıb.

# Zurab Batiaşvili: "Qarabağın minalardan təmizlənmiş əraziləri böyük tikinti meydançasına bənzəyir"



**"Keçən ilin bu vaxtı Qarabağda münaqişə yenidən başlamışdı. Mən hadisələri diqqətlə izləyirdim. Ona görə də mən, Azərbaycanın Gürcüstandakı səfirliyinin təşkilatçılığı ilə işğaldan azad edilmiş ərazilərə səfər etdim ki, hər şeyi öz gözlərimlə görüm". Bu sözləri AZƏRTAC-a müsahibəsində politoloq, Gürcüstanın Rondeli Fondunun mütəxəssisi Zurab Batiaşvili söyləyib.**

Politoloq deyib: "Azərbaycan 9 rayon üzərində öz nəzarətini bərpa edib. Biz həmin bölgəyə səfər zamanı 6 rayonda (Şuşa, Ağdam, Cəbrayıl, Füzuli, Zəngilan və Hadrut) olduq. Həmin rayonlarda ilk görülən iş ərazilərin minalardan təmizlənməsidir. Aydın görünür ki, bu, Azərbaycan üçün prioritet məsələdir".

Onun sözlərinə görə, yalnız Ağdamda 98 min mina tapılaraq zərərsizləşdirilib. Müharibədən sonra təkcə Ağdamda 42 nəfər minaya düşüb. Ona görə də həmin ərazilərə sadə vətəndaşların səfərinə icazə verilmir.

Ermənilərin işğal etdikləri şəhərləri viran qoyduğunu vurğulayan politoloq, hətta Ağdamı Xirosimaya bənzədib: "Ağdamda daş üstə daş qalmayıb, hər tərəfdə xarabalıqlar görünür. Görüntülər adamı dəhşətə gətirir".

O qeyd edir ki, bütün çətinliklərə baxmayaraq Azərbaycan həmin ərazilərdə sürətli bərpa işləri həyata keçirir. Hazırda Qarabağın minalardan təmizlənmiş əraziləri böyük tikinti meydançasına çevrilib. Bərpa işləri isə əvvəlcədən təsdiqlənmiş plan əsasında həyata keçirilir. Şuşaya gedən magistral yolun tikintisi demək olar ki, başa çatıb. Ağdam və Cəbrayılı birləşdirəcək avtomobil yolunun, eləcə də digər infrastrukturun tikintisi davam edir.

Qarabağda gedən quruculuq və bərpa işlərinə xarici investorların da cəlb olunduğunu diqqətə çatdıran Z.Batiaşvili bildirib ki, Gürcüstan şirkətləri də bu işlərə cəlb oluna bilər. "Bununla bağlı artıq müəyyən danışıqlar aparılır", - deyə Z.Batiaşvili vurğulayıb.

# Ukraynalı bloger: "Prezident İlham Əliyevin uğurlu siyasi və iqtisadi kursu Azərbaycanı regionda söz sahibinə çevirib"



Azərbaycanın işğaldan azad etdiyi ərazilər Xirosimanı xatırladır. Qarabağı gəzəndə hiss eləyirsən ki, bu torpaqlar dinc məqsədlər üçün, insanların yaşaması üçün tutulmayıb. Burada daşlar belə yağmalanıb.

AZƏRTAC xəbər verir ki, bu fikri Ukrayna Azərbaycanlıları Radasının baş katibi Ceyhun Məmmədovla görüşündə "Ukrayna Gələcəyin İnstitutu" (Ukrainian Institute for the Future) analitik mərkəzinin həmtəsisçisi, ukraynalı siyasətçi və bloger Yuri Romanenko söyləyib.

Onun sözlərinə görə, Azərbaycan işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması istiqamətində böyük layihələr həyata keçirir. Müharibədən sonra Qarabağı tam gəzən az sayda ekspertlərdən biri olduğunu bildirən Yuri Romanenko qeyd edib ki, Prezident İlham Əliyevin uğurlu siyasi və iqtisadi kursu Azərbaycanı regionda söz sahibinə çevirib. "Azərbaycan, Türkiyə, Gürcüstan və Ukrayna ittifaqı bölgədə iqtisadi inkişafa güclü təkan verə bilər", - deyən mərkəz rəhbəri Türkiyənin regiondakı önəminə də diqqət çəkib.

Ukraynalı siyasətçiyə Azərbaycanın Zəfər yolu və Ukrayna Azərbaycanlıları Radasının ofisində davam edən "Qarabağda Urbisid" adlı sərgi haqqında məlumat verən baş katib Ceyhun Məmmədov erməni işğalçılarının dinc əhaliyə qarşı törətdikləri vəhşilikləri diqqətə çatdırıb. "Başda Gəncə şəhəri olmaqla, döyüş xəttindən onlarca kilometr aralıda yerləşən yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən bombalanıb. Raket zərbələri nəticəsində təkcə Gəncədə 27 nəfər dinc sakin həlak olub, 125 nəfər isə yaralanıb", - deyən C.Məmmədov Azərbaycan tərəfinin isə mülki əhaliyə atəş açmadığını vurğulayıb.

# “Tayhu Forumu dünyada mədəniyyətlərarası dialoqa öz əhəmiyyətli töhfəsini verir”

## Prezident İlham Əliyev Tayhu Dünya Mədəniyyət Forumunun iştirakçılarına müraciət edib

**Çin Xalq Respublikasının Benbu şəhərində Tayhu Dünya Mədəniyyət Forumunun 6-cı illik konfransı başlayıb. AZƏRTAC xəbər verir ki, Çində mədəniyyət sahəsində ən böyük tədbir olmaqla yanaşı, dünyada da bu istiqamətdə nüfuzlu müzakirə platformalarından olan Tayhu Forumunun builki devizi ”Sivilizasiyaların qarşılıqlı öyrənilməsi: bəşəriyyət üçün birgə gələcəyin qurulması”dır. Forumun tarixində ilk dəfədir bir dövlət ”Fəxri qonaq ölkə” statusunda iştirak edir. Son illər dünyada nüfuzu sürətlə artan Azərbaycan Tayhu Forumunun ilk ”Fəxri qonaq ölkəsi”dir. Bundan başqa, Heydər Əliyev Fondu Forumun təşkilatçıları sırasındadır.**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov oktyabrın 12-də açılış mərasimində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Tayhu Dünya Mədəniyyət Forumunun 6-cı illik konfransının iştirakçılarına müraciətini videoformatda çatdırıb. Müraciətdə qeyd olunur ki, Çin Xalq Respublikasının himayəsi ilə keçirilən bu beynəlxalq tədbirin nüfuzu ilbəil artır və Tayhu Forumu dünyanın bir çox ölkəsindən görkəmli siyasətçiləri, alimləri, yaradıcı ziyalıları yenə də bir araya toplamaqla mədəniyyətlərarası dialoqa öz əhəmiyyətli töhfəsini verir. ”Çin Xalq Respublikasının sədri cənab Si Cinpinin ”Sivilizasiyalararası dialoq: bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin birgə qurulması” təşəbbüsünə həsr edilmiş builki foruma Azərbaycanın fəxri qonaq statusunda dəvət edilməsi, eləcə də Heydər Əliyev Fondunun tədbirin əsas həmtəşkilatçılarından biri kimi çıxış etməsi məmnunluq doğurur.







”Dünyanın indiki həssas və təlatümlü dövründə ”Sivilizasiyalararası dialoq: bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin birgə qurulması” mövzusunun müzakirəsinə ciddi ehtiyac vardır. Xüsusilə, dünyanı cənginə almış COVID-19 pandemiyasının yaratdığı mürəkkəb vəziyyət və bəşəriyyətin qarşılaşdığı çağırışlar sivilizasiyalararası dialoqun və qarşılıqlı dəstəyin nə qədər vacib olduğunu bir daha təsdiqləyir.

Azərbaycanda dövlət siyasətinin əsas prioritetlərindən biri də multikulturalizmdir. Multikulturalizm xalqımızın həyat və yaşam tərzini özündə əks etdirən mühüm dəyərlərdəndir. Məhz bu səbəbdən müxtəlif mədəniyyətlərin nümayəndələrinin bir araya gəlməsini və qlobal problemlərin həlli istiqamətində müzakirələri vacib sayır və Tayhu Forumunun builki toplantısı çərçivəsində də bu məsələlərin diqqət mərkəzində saxlanılacağına inanırıq”, - deyə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müraciətində bildirilir.

Forumun müxtəlif bölmə iclaslarında mədəni müxtəlifliyin təşviqi, ”Bir kəmər, bir yol” sivilizasiyanın keçmişi və gələcəyi, iqlim dəyişikliyinə qarşı birgə mübarizə, yoxsulluğun azaldılması, bəşəriyyət üçün birgə gələcəyin qurulmasında elm və texnologiyanın dəstəyi mövzuları müzakirə olunur. Tayhu Dünya Mədəniyyət Forumu Çin hökumətinin dəstəyi ilə 2008-ci ildə yaradılıb. 2011-ci ildən illik iclasları keçirilməyə başlanılıb. Forumda dünyanın bir çox ölkələrindən görkəmli siyasətçilər, ekspertlər, mütəxəssislər, iş adamları iştirak edir.

Qeyd edək ki, budəfəki forum çərçivəsində Tayhu Dünya Mədəniyyət Forumunun mənzil-qərargahının yerləşdiyi ”Qədim Məskənlər Parkı”nda Heydər Əliyev Fondu tərəfindən yaradılan ”Azərbaycan Mədəniyyətinə Pəncərə” adlı milli pavilyonu fəaliyyətə başlayıb.

Əldə olunmuş razılığa əsasən Azərbaycan pavilyonu uzunmüddətli əsasda fəaliyyət göstərəcək. Çinin ən iri turizm layihələrindən olan ”Qədim məskənlər” mədəniyyət parkını hər il ziyarət edəcək milyonlarla qonaq bu pavilyonda Azərbaycanın tarixi, mədəniyyəti, müasir həyatı barədə ətraflı məlumat əldə edə biləcək. Forum iştirakçılarına Azərbaycan pavilyonunun təqdimatı edilib, ”Spirit of Azerbaijan” adlı videoçarx nümayiş olunub. Pavilyonun açılışı ilə bağlı rəsmi sənədi Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü Van Çen və Azərbaycanın Çin Xalq Respublikasındakı səfiri Əkrəm Zeynallı imzalayıblar.

”Sivilizasiyalararası dialoq: bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin birgə qurulması” mövzusunda keçirilən plenar sessiyasında isə Heydər Əliyev Fondunun beynəlxalq əlaqələr departamentinin rəhbəri video formatda çıxış edib. Plenar sessiyada, eyni zamanda Anhoy əyalətinin qubernatoru, Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi, ÇXR-ın sabiq xarici işlər naziri, Çili və İspaniyanın sabiq dövlət və hökumət başçıları, eləcə də UNESCO-nun sabiq baş direktoru İrina Bokovanın çıxışları olub.

Oktyabrın 13-dək davam edəcək forum çərçivəsində ”Dünyada mədəni müxtəlifliyin təbliğ edilməsi və bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin birgə qurulması”, ”Elmi-texnoloji tərəqqi bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin birgə qurulması üçün yardımçı kimi çıxış edir” və digər mövzularda paralel sessiyalar da keçiriləcək.

# Erməni politoloq: “Artıq Qarabağ məsələsi yoxdur”



**”Bir neçə gün əvvəl regionda mühüm hadisə baş verib, lakin o diqqətdən kənarda qalıb: Mixail Saakaşvili Gürcüstana geri dönüb, hansı ki, ona qarşı cinayət işi açılmışdı və çox tez də həbs edildi”.**

SİA-nın məlumatına görə, bunu erməni politoloqu Alen Qevondyan feysbuk səhifəsində yazıb və belə bir sual edib ki, niyə Saakaşvili həbs ediləcəyini bilə-bilə Gürcüstana geri döndü?

”Gürcüstanı daxili sabitlik planında ağır vaxtlar gözləyir, özü də yalnız Gürcüstanı deyil. Qeyri-sabitlik hətta regionun xəritəsini dəyişə bilər. Dərin mənada isə bütün bunlar regionun Rusiyadan birdəfəlik qopması ilə bağlıdır”, deyə Simonyan qeyd edərək digər maraqlı məqama toxunub.

Onun sözlərinə görə, artıq bu gün Qarabağ məsələsi yoxdur, Ermənistan hakimiyyətinin yuxarı dairələri isə türklərlə məsləhətləşirlər.

”Bunlar həmin əhəmiyyətli şərtlərdir ki, 2008-ci ildəki proses yenidən başlasın. Biz ağır siyasi və qeyri-müəyyən iqtisadi boşluğa daxil oluruq”, Qevondyan yazıb.

# Mili Məclisdə ”Müstəqillik Günü haqqında” qanun layihəsi qəbul edilib



**Oktyabrın 11-də Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin sədri Sahibə Qafarova əvvəlcə parlament nümayəndə heyətinin oktyabrın 7-dən 9-dək Slovakiya Respublikasına rəsmi səfəri barədə qısa məlumat verib.**

Parlamentin sədri xatırladıb ki, Slovakiya Mərkəzi Avropada yerləşən bir ölkədir. Əhalisi 6 milyon nəfərə yaxın, ərazisi təqribən 49 min kvadratkilometrdir. Dinamik inkişaf edən iqtisadiyyata malik sənaye ölkəsidir.

Sahibə Qafarova deyib: ”Bu səfər, ümumiyyətlə, Milli Məclisin sədrinin Slovakiyaya ilk rəsmi səfəri idi. Mən Slovakiyanın paytaxtı Bratislavada bu ölkənin Baş naziri Eduard Heger ilə görüşüb. Sonra nümayəndə heyətinin üzvləri ilə parlamentin - Milli Şuranın sədri Boris Kollar, dostluq qrupu və xarici işlər naziri İvan Korçok ilə görüşlər keçirib və danışıqlar apardıq. Mən və Milli Şuranın sədri Boris Kollar Slovakiya mətbuatı üçün birgə brifinq də keçirdik”.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, Slovakiyada söhbətlər zamanı o, Azərbaycanın Avropa İttifaqının üzvü olan dövlətlərlə əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verdiyini bildirib. Azərbaycanın enerji siyasəti, Avropanın enerji təhlükəsizliyi məsələlərində ölkəmizin oynadığı rol haqqında danışıb.

Sahibə Qafarova 44 günlük Vətən müharibəsində böyük Qələbə barədə də məlumat verdiyini söyləyib. Qeyd edib ki, Azərbaycan Ermənistanın 30 ildən bəri işğal altında saxladığı torpaqlarını azad edərək, həm tarixi ədalətin, həm də ərazi bütövlüyünün bərpasına nail olub. Hazırda işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirilir.

Milli Məclisin sədri həmsöhbətlərinin diqqətinə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin iyulunda imzaladığı Fərmanla ölkəmizin iqtisadi rayonlarının yeni bölgüsü müəyyənləşdirilib, iki yeni rayon - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb.

O, görüşlərdə Ermənistanın təxribatları barədə də məlumat verildiyini deyib. Bildirib ki, Ermənistan işğaldan azad olunmuş ərazilərə terrorçu qruplar göndərir, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra tutulmuş terrorçuları ”hərbi əsirlər” kimi qələmə verir, minalanmış ərazilərin xəritələrini təqdim etməkdən boyun qaçırır. Ermənistan tərəfindən basdırılmış minaların partlaması nəticəsində bu günədək 150 nəfər mülki vətəndaş və hərbçimiz həlak olub və ya ağır yaralanıb. Bu isə bir daha onu göstərir ki, Ermənistan həmişə olduğu kimi, yenə də beynəlxalq humanitar hüquqı kobudcasına pozmaqda davam edir.

Sahibə Qafarova deyib ki, o, bununla əlaqədar ötən ilin noyabrında və 2021-ci il aprelin 1-də Slovakiya parlamentində qəbul edilmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qətnamənin və ”Dağlıq Qarabağ haqqında” qərarın təəssüf doğurduğunu və qəbuledilməz olduğunu bildirib.

Gələn il Azərbaycanda Xocalı soyqırımının 30-cu ildönümünün qeyd ediləcəyini diqqətə çatdıran Milli Məclisin sədri xatırladıb ki, bir sıra ölkələrin parlamentləri və bəzi beynəlxalq təşkilatlar insanlığa qarşı törədilmiş bu qətliama dair müvafiq qərarlar qəbul ediblər. S.Qafarova ümidvar olduğunu bildirib ki, Slovakiya parlamenti də Xocalı soyqırımının tanınması prosesinə başlayacaq.

Milli Məclisin sədri çıxışında söhbətlər zamanı iki ölkə arasında iqtisadi münasibətlərin daha da genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması üçün müvafiq tədbirlərin görülməsi, COVID-19 pandemiyasına qarşı mübarizədə atılan addımlar, postpandemiya dövründə əməkdaşlığın daha da dərinləşdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsinin aparıldığını deyib.

Çıxışının sonunda Milli Məclisin sədri Sahibə Qafarova Slovakiyaya rəsmi səfərin uğurla keçdiyini söyləyib. Sonra iclasda cari məsələlərin müzakirəsinə başlanıb.

Cari məsələlərin müzakirəsi zamanı çıxış edən Milli Məclisin komitə sədri Zahid Oruc, deputatlar Hikmət Məmmədov, Rəşad Mahmudov, Fazil Qəzənfəroğlu, Nizami Səfərov, Aqil Abbas, Elman Məmmədov, Elşən Musayev, Azay Quliyev, Aydın Mirzəzadə, Sabir Rüstəmxanlı və Razi Nurullayev seçiciləri narahat edən məsələlər, pandemiya ilə mübarizə, siyasi partiyaların nümayəndələrinin Şuşa səfəri və ölkəmizin ictimai-siyasi həyatına dair digər mövzularla bağlı fikirlərini bildiriblər.

Milli Məclisin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəlikdəki birinci məsələ - ”Müstəqillik Günü haqqında” qanun layihəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilib. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 30-cu ildönümü ərəfəsində belə bir qanun layihəsinin müzakirəyə çıxarılması əlamətdar hadisə olmaqla yanaşı, tariximizə hörmətin ifadəsidir. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası 1918-ci il mayın 28-də dövlət müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Müasir Azərbaycan dövləti tarixi varislik üzərində inkişaf edərək bugünkü yüksək səviyyəyə gəlib çatıb. Təqdim olunan qanun layihəsinin məramı tarixi ədaləti bərpa etmək, ötən 103 ilin iki möhtəşəm hadisəsinə dəqiq və düzgün qiymət verilməsini təmin etməkdir.

Sonra Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli ”Müstəqillik Günü haqqında” qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, müstəqilliyimizin məhz bərpasının 30 illiyi ərəfəsində Azərbaycan Prezidenti tərəfindən dövlətçilik tariximiz üçün çox əhəmiyyətli olan ”Müstəqillik Günü haqqında” qanun layihəsi təqdim edilməsi çox təqdirəlayiq haldır. Bu qanun layihəsi dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən də müstəqilliyimizin keçən əsrin əvvəllərində əldə edilməsi, sonunda isə bərpası kimi tarixi günlərin daha dəqiq ifadə olunması zərurətindən yaranıb. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmişdir. 1991-ci il oktyabrın 18-də isə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktına əsasən xalqımız öz müstəqilliyini bərpa edib. Bu tarixi günlərin mahiyyətinə və məzmununa uyğun daha dəqiq ifadə olunması indiki qanun layihəsində öz əksini tapıb. Beləliklə, təklif olunur ki, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilsin. Müstəqillik Günü və Müstəqilliyin Bərpası Günü hər il bayram kimi qeyd olunsun.

Əli Hüseynli həm tarixi xronologiya baxımından, həm də mahiyyət baxımından bu günlərin dövlətçilik tariximizin ən vacib günləri olduğunu diqqətə çatdırıb. Bildirib ki, bu qanun layihəsi tarixdə baş vermiş hadisələri özündə daha dəqiq ehtiva edir. Azərbaycan Prezidentinin təqdim etdiyi bu qanun layihəsi Hüquq siyasəti və dövlət quruculuğu komitəsində geniş müzakirə olunub və ətraflı fikir mübadiləsi aparılıb.

Qanun layihəsi barədə çıxış edən Milli Məclisin komitə sədrləri Musa Quliyev, Zahid Oruc, Siyavuş Novruzov, deputatlardan Hikmət Məmmədov, Qüdrət Həsənquliyev, Kamal Cəfərov, Nurlan Həsənov, Kamilə Əliyeva, Aydın Mirzəzadə, Emin Hacıyev, Əli Məsimli, Fazil Mustafa və Vahid Əhmədov qanun layihəsinin zəruriliyindən bəhs edib, onun müstəqillik tarixi baxımından vacibliyinə toxunublar.

Fasilədən sonra ”Müstəqillik Günü haqqında” qanun layihəsinin birinci oxunuşda müzakirəsi davam etdirilib.

Milli Məclisin komitə sədrləri Hicran Hüseynova, Bəxtiyar Əliyev, Tahir Rzayev, deputatlar Nizami Səfərov, Razi Nurullayev, Elşad Mirbəşiroğlu, Fazil Mustafa, Sabir Rüstəmxanlı, Anar İsgəndərov, Musa Qasımlı, Ramin Məmmədov, Nigar Arpadarai, Erkin Qədirli, Azər Badamov, Asim Mollazadə, Cavid Osmanov, Etibar Əliyev, Tahir Kərimli, Azay Quliyev və Sahib Alıyev çıxış edərək müzakirə olunan qanun layihəsinin Vətən müharibəsində Azərbaycanın Zəfəri və dövlətçilik tarixi baxımından əhəmiyyətini, daşıdığı məna yükünü xüsusi vurğulayıblar.

Sonra ”Müstəqillik Günü haqqında” qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin üzvünün seçilməsi haqqında qərar layihəsinə də baxılıb. Milli Məclisin deputatı Azaq Quliyev bu komitənin üzvü seçilib. Bununla da Milli Məclisin iclası başa çatıb.

# MEDİA-da KONFRANS: “Media etikası - jurnalist peşəkarlığının əsas prinsipidir”

12 oktyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində ”Media etikası - jurnalist peşəkarlığının əsas prinsipidir” mövzusunda Zoom platforması üzərindən onlayn konfrans keçirilib. SİA-nın məlumatına görə, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov konfransın Azərbaycanın bütün media subyektlərini əhatə etdiyini, o cümlədən region mediasının da prosesə cəlb olunduğunu bildirib.

O qeyd edib ki, doğru, obyektiv informasiyanın yayılması ilə bağlı monitorinqlər medianın bu istiqamətdə bir çox irəliləyişlər əldə etdiyini göstərir. Əhməd İsmayılov vurğulayıb ki, düzgün informasiya vermək jurnalistin özünün və çalışdığı medianın nüfuzunu qaldırır və daha etibarlı sayılır. Bu isə onun gələcəkdə biznes inkişafı baxımdan da kömək ola bilər. Konfransda çıxış edən Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov diqqətə çatdırıb ki, media etikası - jurnalist peşəkarlığının əsas prinsipi olmalıdır, jurnalist peşəsinə sadiq olmalı, təqdim etdiyi faktlar təhrif edilməməlidir.



Sonra Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu ”Beynəlxalq jurnalistikada peşə etikası” mövzusunda təqdimatla çıxış edib. MTRŞ-nin Aparat rəhbəri Fazil Novruzov jurnalistlərin qarşılıqlı etik davranış qaydalarına riayət etməsinin vacibliyini vurğulayıb. MEDİA Agentliyinin media savadlılığı sahəsində həyata keçirdiyi layihələrin əhəmiyyəti qeyd olunub. ”Kür” qəzetinin baş redaktoru, əməkdar jurnalist Əminə Yusifqızı media etikasının- milli mənəvi dəyərlərin tərkib hissəsi olduğunu deyib.

MEDİA Agentliyinin şöbə müdiri Natiq Məmmədli bildirib ki, cəmiyyət qarşısında məsuliyyət daşıyan jurnalist işinə hörmətlə yanaşmalı, təmsil etdiyi orqanı təhlükə qarşısında qoymamalı, etik normaları gözləməlidir. Onlayn konfrans geniş müzakirələrlə davam edib, bir sıra təkliflər dinlənilib.

# Biznesin İnkişafı Fondu hansı yenilikləri tətbiq edəcək?

## *BEYNƏLXALQ ESKPERT AÇIQLADI*

“Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu uzun illərdir fəaliyyət göstərir. Bu fondun təyinatı Azərbaycanda sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi, yeni bazarlara çıxışını əldə etmək məqsədi ilə infrastruktur layihələrin dövlət təminatı əsasında maliyyələşdirilməsini güzəştli kreditlə həyata keçirirdi”. Bu sözləri SİA-ya açıqlamasında beynəlxalq ekspert Asif İbrahimov deyib. Onun sözlərinə görə, digər qurum isə, Azərbaycan İnvestisiya şirkəti tamamilə Azərbaycana məxsus olan nizamnamə kapitalı əsasında yaradılmışdı. Bu qurumun fəaliyyəti ondan ibarətdir ki, qeyri-neft sektorlarının inkişafı sahəsində dövlət proqramlarının həyata keçirilməsi bir çox önəmli strateji layihələrin inkişaf etdirilməsi məqsədi ilə investisiyaların yatırılması idi”.

”Ölkə başçısının müvafiq sərəncamlarına əsasən bu qurumların birləşdirilməsinin bir çox müsbət tərəfləri var: artıq bu qurumlarda idarəetmənin optimallaşdırılması, müvafiq beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması istiqamətində addımlar atılır”.

”Əlbəttə, çətinlik olacaq. Çünki, dövriyyədə olan bir sıra kreditlər və davam edən investisiya layihələr mövcuddur. Adını çəkdiyimiz hər iki qurumun aktivində müəyyən maliyyə vəsaiti var”. ”Ümumiyyətlə bir çox investisiya layihələri Azərbaycan İnvestisiya Şirkəti tərəfindən həyata keçirilirdi. Sahibkarlığın İnkişafı Fondu tərəfindən isə bir çox sahibkarlıq subyektləri güzəştli kreditlər əsasında maliyyələşdirirdi və həmin o təşkilatların böyüməsi, inkişaf etdirilməsi təmin olunurdu”.

”Sahibkarlığın İnkişafı Fondunun etdiyi dövlət yardımı istər avandanlıq təminatının gücləndirilməsi, istər infrastukturun, istər güzəştli kredit formasında verilirdi və dövlət nəzarəti çərçivəsində həmin o investisiya güzəştli kredit verilən təşkilat nəzarət altında saxlanılırdı”.

”Bu yeni fərman çərçivəsində sahibkarlığın, qeyri-neft sektorunun inkişafına daha da ünvanlı şəkildə dəstək verilməsi həyata keçiriləcək. Düşünürəm ki, qarşıdakı bir il ərzində sturukturlaşdırma gedəcək. Bir sözlə, daha uğurlu nəticələr əldə olunacaq. Biznesin İnkişafı Fondunun müvafiq ölçü meyarları müəyyənləşdiriləlidir. Yatırılan hər bir manata görə geri dönüş hesablanmalıdır. Səmərəliyin ölçülməsi müəyyən edilməlidir. Düşünürəm ki, yeni yaranan fondun rəhbərliyi və müvafiq sturukturlar bu barədə addımlar atacaqlar”.

***Ayşən Vəli***

# İlham Əliyev:
## “Mənim sözüm imzam qədər qüvvətlidir!”



*Azərbaycan güc, əzm, iradə, cəsarət, mətanət - haqqın, ədalətin, ərazi bütövlüyümüzün bərpasıdır*

Prezident İlham Əliyev həmişə çıxışlarında ”mənim sözüm imzam qədər qüvvətlidir”,-deyir. Və işğaldan azad olunmuş torpaqlara səfərləri və qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! ”Mənim sözüm imzam qədər qüvvətlidir!”,- deyən Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk gündən həyata keçirdiyi siyasət isə respublikamızın davamlı yüksəlişini, möhkəmlənməsini, qüdrətlənməsini təmin edib. Bu inkişaf kompleks xarakter daşıyaraq cəmiyyət həyatının bütün sahələrində yüksəlişə yol açıb.

Nəticə etibarilə Azərbaycan regionun lideri statusuna sahib olub, beynəlxalq enerji təhlükəsizliyində dünyanın aparıcı dövlətlərindən biri kimi tanınıb. Bütün bunların fonunda son illərin əsas reallıqlarından biri bugünkü Azərbaycanın öz tarixinin ən qüdrətli dövlətinə çevrilməsidir. Təbii ki, bütün bu uğurlarımızın kökündə hər şeydən əvvəl siyasi iradə, möhkəm qətiyyət, düzgün idarəçilik dayanır. Məhz bunların sayəsində Ulu Öndər Heydər Əliyev 1993-cü ildə, ümidlərin artıq tükəndiyi bir vaxtda Azərbaycanı xilas etmişdi. Özünün siyasi müdrikliyi ilə Heydər Əliyev xarici təsirlərin maraq dairəsində olan Azərbaycanı qorudu, müstəqilliyimizin itirilməsinə imkan vermədi, ölkəmizi inkişaf yoluna çıxardı. Heydər Əliyevin hələ həssas dönəmlərdə dünyanın aparıcı neft şirkətlərini Xəzərin karbohidrogen ehtiyatlarına cəlb etməsi onun siyasi müdrikliyinin göstəricisi idi.

### 29 ildən sonra Azərbaycana tamamilə fərqli mənzərə hakimdir

Düz 29 il əvvəl, 1992-ci ilin may ayında müstəqilliyimizin ağır günlər, hakimiyyət uğrunda çəkişmələr Ermənistanın Azərbaycan torpaqlarını işğal etmək planlarını həyata keçirə bilməsi üçün əlverişli zəmin yaratdı və Şuşa, Laçın işğal olundu. AXC-Müsavat cütlüyü siyasi hakimiyyətə gəlmək üçün milli xəyanətə qol qoydu. Ancaq bu gün - 29 ildən sonra isə dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən ”Xarıbülbül” festivalı artıq bərpa olunub.

”Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur” deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 18 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev buna nail oldu. Bütün müharibələrdə olduğu kimi, İkinci Qarabağ müharibəsinin taleyini də strateji bir hədəf həll edirdi ki, bu da Şuşa idi. Məhz buna görə 44 günlük müharibədə çox böyük uzaqgörənlik nümayiş etdirən müzəffər Ali Baş Komandan İlham Əliyev döyüşən ordunun böyük hissəsini Şuşa istiqamətində səfərbər etdi. Şuşa qələbəsindən sonra azğın düşmən ağ bayraq qaldıraraq təslim oldu, kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı, hələ azad olunmamış üç rayonla yanaşı, bir neçə kəndimizi boşaltmaq öhdəliyini üzərinə götürdü və Zəngəzur dəhlizinin açılmasına razılıq verməyə məcbur edildi. Hələ 2010-cu il noyabrın 1-də Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılışında çıxış edərkən Azərbaycan Prezidenti İlham Əliyev demişdi ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaq. 2021-ci ilin yanvarın 14-ü həmin vəd yerinə yetirildi. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı qaldırdı. Separatçı rejiminin nümayəndələri o vaxt demişdilər ki, ancaq bir halda Azərbaycan bayrağı Şuşada qaldırıla bilər, o da əgər Azərbaycan ”Dağlıq Qarabağ respublikası”nı tanıyıb Dağlıq Qarabağda öz səfirliyini açsa. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycana ordusunun parlaq zəfəri bu iyrənc, təkəbbürlü ifadələrin sahiblərini qorxaqcasına susmağa məcbur edir. Prezident çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Bu sözlər də artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub.

### Erməni vandalizminin şahidləri - Güllələnmiş büstlər doğma Vətənində

Erməni vandallar törətdikləri cinayətlərə görə mütləq cəzalarını çəkəcəklər. Və bu vandalizmin şahidləri - güllələnmiş büstlər doğma Vətəninə qayıdıb. Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımıza səfərləri zamanı dediyi kimi: ”Dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbəmizin rəmzidir. Onların ruhu şaddır. Onlar doğma Vətənə qayıdıblar...Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Milli ruhumuzun təcəssümü olan şəxsiyyətlərin, xüsusən Üzeyir bəyin büstünün Qafqazın incisi, mədəniyyətimizin beşiyi olan Şuşaya qaytarılması yeni milli mədəni intibahımızın rəmzi olacaq”. Dövlət başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, Azərbaycan tolerant ölkədir. Elə səfərləri zamanı həm məscid, həm kilsəni ziyarət etməklə Prezident dünyaya tolerantlıq, gələcək birgəyaşayışın mümkünlüyü barədə mesajlar verdi: ”Paşinyan və ailə üzvləri, daha əvvəllər isə Sarksiyan, Koçaryan və digər xunta üzvləri Şuşaya hərbi əsirləri işgəncə etmək, büst oğurlamaq, talan üçün gəlirdisə, Azərbaycan rəhbərliyi quruculuq üçün gedir... Biz bütün dinlərin məbədlərini qoruyuruq və qoruyacağıq”.

Bəli, 44 gün davam edən Vətən müharibəsinin 42-ci günündə - noyabrın 8-də azərbaycanlıların illərdir həsrətində olduğu Şuşa şəhəri işğaldan azad edildi və elə həmin gün Şuşada Azərbaycan bayrağı qaldırıldı. Bu tarixi və müqəddəs müjdəni Azərbaycan xalqına Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev böyük fəxarət və qürur hissi ilə çatdırdı. ”Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər Azərbaycanın səbri ilə oynamasın, 44 günlük müharibə onların yadından çıxmasın”,-deyən dövlət başçısı bir daha vurğulayıb ki, iti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik: ”Əgər kimsə revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Azərbaycanın dəmir yumruğu düşmənin belini qırıb, lazım olarsa, bir daha qırar!”.

### ”Dəmir yumruq” gücündən - Qarabağ dirçəlişinə doğru

Bəli, bu gün dəmir yumruğun gücü ilə Qarabağ Azərbaycandır dirçəliş yolundadır. İlk öncə bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi əsas məsələlər sırasındadır. Doğrudur, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu, Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. Bu, həm on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir. Onu da qeyd edək ki, Azərbaycan Prezidenti cəmi bir il ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb, genişmiqyaslı layihələr icra olunur. Şuşaya Zəfər yolu, Füzuli-Şuşa ikinci magistral avtomobil yolu çəkilir, dini-tarixi abidələr bərpa olunur. İnfrastruktur layihələri icra olunur. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır.

Bu günədək Azərbaycan Prezidentinin bəyan etdiyi bütün hədəflərə nail olunması bunu təsdiqləyir. Və İkinci Qarabağ savaşını ”Dəmir yumruq”la qazanan Ali Baş Komandan İlham Əliyev ”dəmir iradə” ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Yeni açılışlar, təməlqoymalar isə işğaldan azad edilmiş torpaqlarımızda başlanan tikinti-quruculuq, yenidənqurma işlərinin, yəni Qarabağın inkişaf planının tərkib hissəsidir.

Bir sözlə, dövlət başçımızın dediyi kimi: ”Beləliklə, dünyada, regionda, qonşular arasında hörmət qazanmışıq və ölkəmizi gücləndirmişik. Bizimlə hesablaşmağa başlamışlar. Bizim sözümüzə inanırdılar və inanırlar. Həmişə demişəm, sözüm imzam qədər qüvvətlidir”.

**RƏFİQƏ KAMALQIZI**

# Serjik qumarda 100 milyon dollar uduzub!



”2008-2017-ci illərdə Ermənistan prezidentinə məxsus olan təyyarə yüksək rütbəli məmurlarla birgə və xidməti ehtiyac olmadan dövlət hesabına mütəmadi olaraq Almaniyanın Baden-Baden şəhərinə uçub”. SİA xəbər verir ki, bu bəyanatı Ermənistanın xüsusi istintaq idarəsi yayıb. Məlumata görə, uçuşlar prezident administrasiyasının rəsmi müraciəti olmadan, qanunsuz şəkildə həyata keçirilib. Nəticədə, yüksək vəzifəli şəxslərin xidməti vəzifələrindən sui-istifadə halları ilə bağlı Ermənistanın cinayət məcəlləsinin müvafiq bəndinə əsasən cinayət işinə başlanılıb.

Daha əvvəl isə Ermənistanın baş prokurorluğuna ölkənin üçüncü prezidenti Serj Sarqsyanın Baden-Badenə səfəri zamanı törətdiyi cinayət hadisəsi ilə bağlı məlumat daxil olub. Belə ki, cari ilin avqustunda hakim ”Vətəndaş sazişi”ndən olan deputat Xaçatur Sukiasyan əvvəlki hakimiyyətlərin korrupsiya faktları ilə bağlı fikirlərini açıqlayarkən Serj Sarqsyanın da adını çəkib və bəyan edib ki, Serjik Baden-Baden kazinosunda oynadığı qumaq oyunlarında 100 milyon dollar uduzub.

Qeyd edək ki, Serj Sarqsyan 2007-2018-ci illərdə Ermənistanın üçüncü prezidenti olub və bu gün də onun barəsində bir sıra cinayət əməllərinə görə ittihamlar mövcuddur.

*Rövşən*

# “Viza rejiminin ləğv edilməsi ciddi iqtisadi təkana səbəb olmayacaq” - İQTİSADÇI AÇIQLADI

**“Azərbaycanla Serbiya arasında viza rejiminin ləğv edilməsi hansısa ciddi iqtisadi təkana səbəb olmayacaq. Çünki Serbiya Avropa Birliyinə daxil deyil. Serbiya hər hansı bir inteqrasiya strukturlarında iştirak etmir”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Elşad Məmmədov deyib.**

Onun sözlərinə görə, lakin Serbiya Avropanın mərkəzində yerləşən bir dövlətdir, kifayət qədər şaxələndirilmiş iqtisadiyyata malikdir: ”Digər tərəfdən Serbiyanın məhz yüksək texnoloji sektorunun inkişaf etməsi və burada müsbət ənənələrin mövcudluğu Azərbaycan təsərrüfat və iqtisadi subyektləri ilə Serbiya iqtisadi və təsərrüfat subyektləri arasında texnoloji korporasiyanın inkişaf etməsinə müəyyən qədər təsir göstərə bilər. Bu istiqamətlərdə inkişafın təmin edilməsi nöqteyi-nəzərdən qarşılıqlı işgüzar səfərlərin reallaşdırılması, iqtisadi münasibətlərin təkmilləşdirilməsi müəyyən qədər mümkündür”.

Elşad Məmmədov sözlərinə belə davam edib: ”Eyni zamanda, iqtisadi böhran səngidikcə müəyyən seqmentlər üzrə turist axınlarında da müsbət tendensiyalar əldə oluna bilər. Ona görə də bütövlükdə bu addımı müsbət qarşılamaq lazımdır”.

”Həmçinin, unutmaq lazım deyil ki, viza rejiminin ləğvi ilə bağlı qəbul edilmiş istənilən ölkəyə aid qərarlar son nəticədə həm iqtisadi, həm də sosial, humanitar əməkdaşlığa müsbət təsir göstərə bilər. Çünki, burada ən mühüm məqamlardan biri də məhz humanitar əməkdaşlıqdır və humanitar əməkdaşlığın inkişaf etməsində viza rejiminin aradan qaldırılması olduqca mühüm amil kimi çıxış edir. Bura həm təhsil sferası üzrə əməkdaşlıq, həm elmi mübadilə, səhiyyə sferası, həm də əczaçılıq sənayesi daxil oluna bilər. Çünki Serbiyanın bu istiqamətlərdə kifayət qədər müsbət təcrübəsi var və ona görə də bütövlükdə bu qərarı müsbət dəyərləndirmək olar”.

*Ayşən Vəli*

# Yaponiya saytı Prezident İlham Əliyevin Hadruta və Tuğa səfərindən yazır




Oktyabrın 10-da Yaponiyanın "ajmedia.jp" saytı Azərbaycan Prezidenti İlham Əliyevin Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfəri barədə məlumat yayıb. Azərbaycanın əsas informasiya agentliyi olan AZƏRTAC-a istinadla verilən məlumatda Azərbaycan Prezidentinin Hadrut qəsəbəsində yeni məscidin və "Hadrut" qovşaq yarımstansiyasının təməlini qoyması, Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işləri ilə tanış olması öz əksini tapıb. Yaponiya saytı dövlətimizin başçısının Xocavənd rayonunun ictimaiyyəti ilə görüşməsi və onlarla birlikdə Tuğ kəndinə getməsi barədə də məlumat verib.

# Taqib Şaker: "Prezident İlham Əliyev yalnız müdrik dövlət xadimi deyil, həm də mahir diplomat və qalib sərkərdə olduğunu göstərdi"



**Azərbaycan Prezidenti İlham Əliyev yalnız müdrik dövlət xadimi deyil, həm də mahir diplomat və qalib sərkərdə olduğunu göstərdi.**

Bunu bir il əvvəl Azərbaycanın Vətən müharibəsində Ermənistan üzərində qazandığı parlaq Qələbəni şərh edən "Utusan Malaysiya" qəzetinin beynəlxalq xəbərlər şöbəsinin əməkdaşı Taqib Şaker AZƏRTAC-ın bu ölkədəki xüsusi müxbirinə məxsusi müsahibəsində deyib.

Malayziyalı jurnalist bildirib ki, Prezident İlham Əliyev yalnız Azərbaycan xalqının müdrik Lideri deyil, həm də onun qəlbində əbədi yer qazanmış əsl rəhbər kimi özünü bütün dünyaya sübut etdi. Məhz bu xüsusiyyətləri sayəsində Azərbaycan Prezidenti xalqı ətrafında bir yumruq kimi birləşdirərək işğalçı Ermənistana yerini göstərdi.

"Qanlı müharibədən yayınmaq mümkün idi", - deyən T.Şaker bunun üçün BMT başda olmaqla, bütün dünyanın Ermənistana təzyiq göstərməli, onu işğal olunmuş əraziləri qeyd-şərtsiz azad etməyə çağırmalı, eyni zamanda, qəsbkar ölkəni buna məcbur etməyin yollarını tapmağın zəruri olduğunu vurğulayıb. Bildirib ki, Ermənistan Azərbaycanın diplomatik uğurlarını, yürütdüyü xarici siyasətin qazandırdığı dividentləri görməli, qonşu dövlətin sürətlə artan nüfuzundan və iqtisadi qüdrətindən çəkinməli idi. Başa düşməli idi ki, dünyanın heç bir dövləti bu işğalçı ölkəyə dəstək verməyəcək. Məhz bu, Ermənistan üçün sarsıdıcı zərbə oldu.

Azərbaycan isə əksinə, bütün dünyaya nəinki yalnız xalqın sonsuz Vətən sevgisini göstərdi, həm də qəlbi işğal altında olan torpaqların azad edilməsi ilə arzusu yanan gənclərin sarsılmaz rəşadətini, qəhrəmanlığını nümayiş etdirdi. Vətən torpaqları naminə canlarını qurban verərək şəhidlik zirvəsinə yüksəlmək bu gənclər üçün ən böyük motivasiyaya çevrildi. Təsadüfi deyil ki, bu gün qəhrəman Azərbaycan Ordusunun döyüş qabiliyyəti, müasir silahlardan məharətlə istifadə etmək bacarığı dünyanın ən aparıcı hərbi məktəblərində öyrənilir. Bu igidlərin qəhrəmanlığı heç vaxt unudulmayacaq və onların adı Azərbaycanda ən yüksək səviyyədə daim xatırlanacaq.

Ermənilərin ağır məğlubiyyətinə səbəb olan bir neçə amilə diqqət çətən Taqib Şaker deyib: "Bu məğlubiyyət bir neçə amillə bağlı idi. İlk növbədə, onların törətdikləri bütün təxribatlar özlərinə qarşı çevrildi. Ermənilər düşünürdülər ki, ötən əsrin 90-cı illərinin əvvəllərində olduğu kimi, bu dəfə də Azərbaycanı üstələyə biləcəklər. Lakin müharibənin gedişi göstərdi ki, onlar yanılırlar və bundan sonra Azərbaycanın qarşısında heç vaxt duruş gətirə bilməyəcəklər".

Müharibədən sonra dünyanın bir çox telekanallarının, o cümlədən Malayziya kütləvi-informasiya vasitələrinin ermənilərin işğal etdiyi ərazilərdə törətdiyi vandalizm, yaşayış məskənlərini, sosial obyektləri, dini və tarixi abidələri dağıtması, müqəddəs yerləri təhqir etməsi barədə materiallar yaydığını qeyd edən malayziyalı jurnalist bildirib ki, bu, ermənilərin yalnız Azərbaycana qarşı deyil, bütün insanlığa qarşı hədsiz nifrətini bir daha ortaya qoydu. Beynəlxalq ictimaiyyət bütün bunlardan lazımi nəticə çıxarmalı və qəsbkar ölkə bir daha heç vaxt kimdən dəstək almamalıdır. Bunun üçün dünya mətbuatı Ermənistanın bu cinayətləri barədə daha çox informasiya yaymalıdır.

Vətən müharibəsində Azərbaycanın böyük Qələbəsinin regionda yeni reallıqlar yaratdığını qeyd edən T.Şaker bildirib ki, Ermənistan aldığı bu dərsdən düzgün nəticə çıxarmalı, başqasının torpaqlarına bir daha göz dikməməlidir. Əksinə, yaranmış imkandan faydalanaraq, regionda həyata keçirilən iqtisadi layihələrə qoşulmalı və erməni xalqının rifah halını yaxşılaşdırmağa, sülh və sabitliyin davamlı olmasına çalışmalıdır. Əks halda, gələcək Ermənistan üçün yaxşı heç nə vəd etmir.

Malayziyanın Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini xatırladan jurnalist vurğulayıb: "Azərbaycandan nə qədər uzaq olsa da, dualarımız və dəstəyimiz daim onunladır. Bu Zəfər yalnız dost Azərbaycanın deyil, həm də Malayziyanın, malay xalqının qələbəsidir".

# "Tarixi günlərimizi düzgün adlandırmalıyıq"



"Dövlətçilik tariximizlə bağlı əlamətdar günlər və onun necə adlandırılması milli tarixi yaddaşımızın düzgün əsaslarda formalaşması və gələcək nəsillərə də düzgün və dəqiq ötürülməsini zəruri edir. Ona görə də biz 28 may tarixinin "Müstəqillik Günü", 18 oktyabr tarixinin isə "Müstəqilliyin Bərpası Günü" adlandırılması ilə bağlı Milli Məclisdə qanun layihəsini müzakirə edərkən bir sıra mühüm nüanslara diqqətlə nəzər yetirməli, bu dəyişikliyi zəruri edən şərtləri də əsaslandırılmış şəkildə, obyektiv əsaslarda düzgün şərh etməliyik. Hər şeydən öncə qeyd etməliyik ki, dövlətçiliyimizin inkişaf tarixi baxımından bu dəyişikliyi aktual edən mühüm bir mərhələyə qədəm qoymuşuq. Bu mərhələ Vətən müharibəsində əldə etdiyimiz böyük qələbəmiz və onun yaratdığı reallıqlarla bağlıdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, reallıq isə ondan ibarətdir ki, qalib xalq kimi yenidən milad etdiyimiz bir vaxtda milli şüur və düşüncəmizdə də, dövlətçilik təfəkkürümüz və onun yeni, obyektiv əsaslarda formalaşmasında da yeni çağırışlarla ayaqlaşmalı, dünənimiz və bu günümüz arasında düzgün əlaqə qurmalıyıq ki, gələcəyimiz də strateji əsaslara formalaşsın: "Bu mənada dövlətçilik tariximizin mühüm əlamətdar günləri, onların adları və bu adların daşıdığı məzmun xüsusi strateji komponent kimi çıxış edir. Buradakı ardıcıllıq və varislilik də heç də ondan az əhəmiyyət kəsb etmir. Çünki bu tarixi yaddaş formulası təkcə ictimai şüurumuza doğruları ötürməklə bağlı deyil, həm də bütün dünyaya dövlətçilik tariximizlə bağlı mühüm informasiya ötürə bilməsi ilə səciyyəvidir. Ona görə də qeyd etməliyəm ki, təqdim olunan qanun layihəsi hüquqi, siyasi baxımdan olduğu kimi dil, üslub və terminalogiya baxımından da Azərbaycan dilinin qanunauyğunluqlarına adekvat şəkildə düzgün şərh edilməlidir. Qanun layihəsində əks olunan dəyişikliyin hüquqi tərəfləri ilə bağlı layihənin giriş hissəsində xüsusi şərh verilib. Bu kifayət qədər əsaslandırılmış və obyektiv şərhdir. Çünki müstəqillik tariximizin hüquqi siyasi əsaslarını təmin edən tarixi aktlar və qərarlara istinad edilməklə bunlar arasında hüququn texniki baxımdan düzgün şərh edilməsinə diqqət çəkilir. Əsas məsələ üzərində, yeni müstəqillik haqqında konstitusiya aktı ilə müstəqilliyin bərpa edilməsi haqqında termininə vurğu edilərək ikincinin tarixi və hüquqi-siyasi gerçəklik baxımından daha dəqiq olduğuna vurğu edilir. Doğurdan da həm hüquqi baxımdan, həm də sözün ifadə etdiyi məzmun baxımından ikinci daha doğrudur və həm milli yaddaşımıza həm də bütün dünyaya informasiya vermiş olur ki, biz 1991-ci ildə dövlət müstəqilliyimizi bərba etdik. Əsl müstəqillik tariximiz isə 1918-ci ildən başlayır. Bunlar isə tamamilə fərqli şeylərdir, çünki birinci halda müstəqillik tariximiz təqribən 30 illik, ikinci halda isə artıq 103 illik keçmişlə əlaqələndirilmiş olur".

Deputat qeyd edib ki, əslində yeni qanun layihəsini olduğu kimi qəbul etmək üçün elə bu izahat kifayətdir: "Ancaq məsələ ondadır ki, biz həm də bu vaxta qədər "Respublika" günü kimi qeyd etdiyimiz tariximizi də bundan sonra "Müstəqillik" günü kimi qeyd edəcəyimiz dəyişikliyi etməyə hazırlaşırıq. Bu isə bəzi hallarda yanlış anlaşılır, bəzi hallarda isə müxaliflər tərəfindən qəsdən yanlış təqdim edilməklə istismar edilir. Beləliklə ictimai rəydə əslində zəruri və lazımlı olan bu tarixi dəyişiklik qeyri-obyektiv təəssürat yaradır. Ona görə də mən bu məsələnin üstündə ayrıca dayanmaq istəyirəm. Hörmətlə yad etdiyimiz və daima xatirələri önündə baş əydiyimiz, Azərbaycan Xalq Cümhuriyyətini quran və bu xidmətləri ilə xalqımıza əvəzedilməz miras qoyan əcdadımız Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əlimərdan Bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli kimi tarixi şəxsiyyətlərimiz qurduqları müstəqil dövlətimizin adını Azərbaycan Xalq Cümhuriyyəti qoydular. Bunu bütün dünyaya bəyan edərkən istifadə etdikləri termin isə "İstiqlal Bəyannaməsi" oldu. Yəni, müstəqillik haqqında bəyannamə! Çünki hazırda dilimizdə ən çox işlənən sözlərdən olan müstəqillik və istiqlal sözlərinin hər ikisi ərəbcədən yaranıb. Mənası heç kəsə tabe olmayan, səlahiyyət sahibi olan deməkdir. Yəni müstəqiliyimizi ifadə etmək üçün Xalq Çümhuriyyətimizi quran əcdadımız "İstiqlal Bəyannaməsi" formulasını təsadüfən yox məhz bu sözün ehtiva etdiyi semantik məzmuna əsaslanaraq istifadə etmişdilər. Ona görə də biz həmin günü elə "Müstəqillik" tariximiz kimi qeyd etməliyik. Bu həm dilimiz və onun semantik qanunauyğunluğu baxımından həm də şüurumuzda müstəqillik sözünün yaratdığı asossasiya baxımından düzgün və məntiqlidir. Bu günə qədər bayram etdiyimiz "Respublika Günü" termininə gəldikdə isə qeyd etmək lazımdır ki, heç bir halda Respublika sözü Müstəqillik və İstiqlal sözünün sinonimi olmadığı üçün biz müstəqilliyimizi ifadə etmək üçün Respublika sözünü işlədə bilmərik. Respublika bir dövlətin idarəetmə formasını bildirən xususi termindir. Latın dilində dövlət işləri, ictimai işlər mənasını ifadə edir. Hazırki məzmununa gəldikdə isə ali hakimiyyəti xalq tərəfindən seçilməklə formalaşdırılan idarəetmə forması deməkdir. Ona görə də idarəetmə formasına görə dövlətləri təsnifatlandırarkən biz Prezidentli Respublika, Parlamentli Respublika yaxud qarışıq tipli Respublika kimi ifadələrdən istifadə edirik və bu beynəlxalq leksikon üçün də anlaşılan olur. Yəni, nə etimoloji və semantik nə də terminoloji baxımdan Respublika sözü müstəqilliyi ifadə etmir .Ona görə də bizim Respublika gününü Müstəqillik günü ifadəsi ilə əvəz etməmiz həm dilimizin tələbləri, həm beynəlxalq siyasi-hüquqi terminlərin tələbi, həm də tarixi reallığımızın düzgün ifadə olunması baxımından olduqca doğrudur".

H.Babaoğlu vurğulayıb ki, dəyişikliyin siyasi-hüquqi tərəflərinə gəldikdə isə qısaca olaraq daha bir mühüm məsələ üzərində dayanmaq istəyirəm: "Düşünürəm ki, bu xüsus həm hazırki reallıqlar və milli çağırışlarımız kontekstində, həm də formalaşmaqda olan yeni geostrateji konfiqurasiya və güc balansı kontekstində olduqca aktualdır. Söhbət ondan gedir ki, hazırki müstəqil Azərbaycan Respublikası müstəqillik haqqında konstitusiya aktını qəbul edərkən özünü Azərbaycan Xalq Cümhuriyyətinin hüquqisiyasi varisi elan edib. Bu tamamilə doğrudur. Ancaq biz eyni zamanda bilirik ki, Xalq Cümhuriyyəti ilə Müstəqil Azərbaycan arasındakı tarixi mərhələdə bizim milli dövlətçiliyimizn ayrı bir həlqəsi, sovet dövrü olub. Doğrudur, Sovet Azərbaycanı müstəqil dövlət deyildi. Ona görə ki, beynəlxalq hüququn suveren subyekti sayılmırdı. Ancaq hər halda mövcud idi və dövlətçilik ənənələrimizin davam etdirilməsi və milli kimliyimizin qorunması baxımından olduqca əhəmiyyətli idi. Özünün sərhədləri, inzibati-siyasi strukturu, qanunverici və icraedici strukturları və s. var idi. Ona görə də dövlətçilik tariximizin ardıcıllığı baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Ancaq bizə o da məlumdur ki, sovet imperiyası Azərbaycan Xalq Cümhuriyyətini süquta uğradıb onun ərazisini öz tərkibinə qatdıqdan sonra Xalq Cümhuriyyətimizin beynəlxalq hüquqla tanınan sərhədlərini də ciddi şəkildə dəyişikliyə məruz qoymuş və daxili inzibati-siyasi strukturlaşmamıza yad olan tutaq ki, Dağlıq Qarabağ kimi süni struktur tərkibləri yaratmışdı. Bu gün müzəffər Ali Baş Komandanımız öz qalib ordusu ilə bütün bunlara son qoyub. 7 iyul tarixində Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları yaratmaqla süni bölgüləri silib. Müstəqil Azərbaycanın suverenliyini bərpa edib. Belə olan halda həm bu tarixi çağırışlar və həm də tarixi ədalət naminə hazırki çağırışları düzgün qiymətləndirməklə biz tarixi günlərimizin düzgün, dəqiq və məzmunlu ifadə olunması üçün əlamətdar günlərimizi də düzgün adlandırmalıyıq".

**A. Məmmədova**

# Vüqar Rəhimzadə: "Azərbaycan siyasətində müstəqildir"



**"Azərbaycanın ədalətə və beynəlxalq hüquqa əsaslanan siyasəti, həmçinin böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmət və maraqlar prinsipi əsasında münasibətlər qurması istər ikitərəfli əməkdaşlıq əlaqələrində, istərsə də beynəlxalq münasibətlər sistemində yerinin və mövqeyinin möhkəmlənməsində əhəmiyyətli rol oynayır.**

Azərbaycanın BMT Baş Assambleyasından sonra dünyada ikinci ən böyük təsisat olan, sıralarında 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına üzvlüyü və quruma iki il sədrlik missiyasını üzərinə götürməsi də ölkəmizin artan nüfuzunun göstəricisidir. Dövlət başçısı İlham Əliyevin oktyabrın 11-də Qoşulmama Hərəkatının Yüksək Səviyyəli Toplantısında videoformatda çıxışı da bir çox məqamların təqdimatıdır. Ölkə Prezidenti çıxışında Hərəkatın tarixi, prinsipləri, Azərbaycanın bu quruma üzvlüyündən və sədrliyindən bəhs edərək təşkilatın fəaliyyəti ilə bağlı bir sıra təşəbbüslərlə çıxış etdi. Suverenlik və ərazi bütövlüyünə hörmət, təcavüz aktlarından çəkinmə, başqalarının daxili işlərinə qarışmama kimi prinsipləri özündə ehtiva edən tarixi Bandunq Prinsiplərinin Qoşulmama Hərəkatının təməlində dayandığını önə çəkən dövlət başçısı bildirdi ki, bu prinsiplər müasir beynəlxalq münasibətlərdə aktual və vacib olaraq qalır. Əgər bütün ölkələr bu prinsiplərə riayət etsəydilər, onda dünyada müharibələri və münaqişələri görməzdik". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyev münaqişəli məsələlərin həllində dünyanın ikili standartlara əsaslanan siyasətinin mənfi təsirlərindən geniş bəhs edib: "Azərbaycan 30 ilə yaxın dövrdə belə ikili yanaşmaya məruz qalıb. Ermənistan beynəlxalq münasibətlərdə tüğyan edən ikili standartlardan istifadə edərək Azərbaycan torpaqlarını 30 ilə yaxın müddətdə işğal altında saxladı. Azərbaycan bu müddətdə sülh danışıqlarına sadiqlik nümayiş etdirərək məsələnin dinc vasitələrlə həllində maraqlı olduğunu atdığı hər addımında təsdiqlədi. Ermənistanın isə əksinə, danışıqlara imitasiya naminə qatılması təbii ki, himayədarlarının ona dəstəyindən irəli gəlirdi. Hətta bu dəstəkdən ruhlanan təcavüzkar daha da irəli gedərək yeni ərazilər uğrunda müharibə planları hazırladı".

YAP Xətai rayon təşkilatının sədri bir daha diqqəti BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın icrasını gözləyən, amma maraqlar naminə müşkülə çevrilən 4 qətnaməsindən bəhs edərək bildirib ki, 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycanın rəşadətli Ordusu dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu qətnamələri təkbaşına icra etdi, dünyaya ədalətin və beynəlxalq hüququn mövcudluğunu sübut etdi: "Reallıq budur ki, dünya təcavüzkar dövlətlə işğala məruz qalan dövlət arasında fərq qoymadı. Ən əsası dünyanın aparıcı dövlətləri işğalçını adı ilə çağırmağın münaqişənin həllinə mane olacağını bildirdilər. Məhz bütün bunlara görə Azərbaycan işğalın davam etdiyi 30 ildə bir çox suallara cavab tapmaq istədi".

V.Rəhimzadə vurğulayıb ki, 44 günlük Vətən müharibəsi nəticəsində tamamilə məğlub edilmiş Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur oldu. Vətən müharibəsi 30 illik konfliktə son qoydu, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı: "Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin daim dəstəklənməsinin yüksək qiymətləndirildiyini vurğulayan dövlət başçısı İlham Əliyev sözügedən toplantıda bu məqamı da xüsusi qeyd etdi ki, Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri olan Qoşulmama Hərəkatının yeddi ölkəsinin Azərbaycana verdikləri dəstək olduqca dəyərlidir. Bu baxımdan ki, həmin dövlətlər BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrinə istinadın edilməsini birtərəfli mətbuat açıqlamasının qəbul edilməsinə imkan vermədilər".

"Günümüzün reallıqlarından biri kimi COVID-19 pandemiyası ilə mübarizə tədbirləri də Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerinə aydınlıq gətirdi" söyləyən V.Rəhimzadə bildirib ki, Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslər həm Qoşulmama Hərəkatının üzvlərini, həm də bütün BMT-ni sanki səfərbər etdi və aktiv şəkildə pandemiyaya qarşı mübarizənin daha operativ yollarını tapmaq üçün müzakirələrə başlanıldı: "Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının, Türk Şurasının Zirvə görüşləri, BMT Baş Assambleyasının Xüsusi Sessiyası keçirildi. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizədə nümunəvi ölkə adlandıraraq möhtərəm Prezidentimizin irəli sürdüyü təşəbbüsləri dəstəklədi. Bugünədək Azərbaycan 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərib. Azərbaycan, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi edib ki, onun da yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardımdır. Azərbaycan təmənnasız olaraq dörd ölkəyə 150 min doza peyvənd ianə edib, "peyvənd millətçiliyi"nə və peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınmasına qarşı narazılığını açıq şəkildə bildirib. 2021-ci ilin mart ayında Azərbaycanın təşəbbüsü əsasında BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər çıxışın təmin edilməsinə dair qətnamə qəbul edilib. Prezident İlham Əliyev topantıda bu təşəbbüslə çıxış etdi ki, BMT Baş Assambleyasının cari sessiyası çərçivəsində də Azərbaycan eyni mövzuda qətnamə layihəsini irəli sürməyi planlaşdırır."

YAP Xətai rayon təşkilatının sədri bu ümumiləşdirməni aparıb ki, hər bir beynəlxalq tədbir hər bir dövlətin, ölkə başçısının beynəlxalq aləmdə nüfuzuna aydınlıq gətirir: "Müstəqil addımları ilə xarici siyasətdə davamlı uğurlara imza atan Azərbaycan artıq regional inkişafın aparıcı qüvvəsinə çevrilib, dünya birliyində etibarlı tərəfdaş kimi nüfuz qazanıb. Azərbaycan heç bir dövlətin diktəsi ilə oturub durmur, siyasətində müstəqildir və hər bir addımında dövlət maraqları öndə dayanır. Şübhəsiz, irəli sürülən təşəbbüslərin dəstəklənməsində Azərbaycan Prezidentinin şəxsi nüfuzu əsas rol oynayır. Bu baxımdan Qoşulmama Hərəkatı üzvləri tərəfindən Azərbaycanın sədrliyinin daha bir il uzadılmasına dair qərarın verilməsi təsadüfi deyil və bu addım Azərbaycana olan etimadın, inamın növbəti təzahürüdür. Bu qərar, eyni zamanda, Qoşulmama Hərəkatı ölkələri tərəfindən cənab Prezidentin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir."

# "Azərbaycan xalqı qurucudur və yaradıcıdır" -




**SİYASİ ŞƏRHÇİ AÇIQLADI**

"Hardrut qəsəbəsi Azərbaycan üçün böyük əhəmiyyət daşıyırdı və Azərbaycan ordusunun həyata keçirdiyi əməliyyatlar zamanı ən çox müzakirə mövzusu olan və Ermənistanın da daha çox manipulyasiya etdiyi yaşayış məntəqəsi idi". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib.

Onun sözlərinə görə, ermənilər dəfələrlə, müxtəlif müstəvilərdə sübut etməyə çalışırdı ki, Azərbaycan ordusu Hardrutu azad etməyib, amma bütün bunlarla yanaşı informasiya müharibəsi zamanı həm Ermənistan, həm də Ermənistana dəstək verən müxtəlif ölkələrdən gəlmiş "media təmsilçiləri" nəticədə özlərini ifşa etdilər.

Elçin Mirzəbəyli bu barədə fikirlərini belə izah edib: "Beləliklə, Azərbaycan ordusunun necə uğurlu əməliyyat keçirdiyinin bütün dünya şahidi oldu. Ermənilər nə üçün daha çox Hardrut məsələsi üzərində müzakirə aparırdılar? Çünki qismən daha çox məskunlaşmış ərazilərdən biri hesab olunurdu. Dağlıq ərazidə yerləşirdi. Hadrutun əldə olunması, artıq işğalçı rejimin işğal altında olan Azərbaycan torpaqları ilə bağlı verdiyi bütün bəyanatları sıfır müstəvisinə endirirdi. Artıq Ermənistan cəmiyyətində məğlubiyyət mesajları yayılırdı.

Digər səfərlərində olduğu kimi cənab Prezident önəmli mesajlar verdi. Siyasi şərhşi bu barədə deyib: "Azərbaycan Prezidentinin işğaldan azad olunmuş səfərləri təkcə Azərbaycan ictimaiyyəti tərəfindən yox, bütün dünya tərəfindən, xüsusilə də, Ermənistan tərəfindən diqqətlə izlənir. Bu mesajların içərisində 30 ilə yaxın bir müddət ərzində ermənilərin işğal etdikləri ərazilərdə faktiki olaraq heç bir yaşayış məntəqəsi və infrastruktur layihəsi həyata keçirmədiyini xüsusi olaraq vurğuladı.

Digər tərəfdən Azərbaycan torpaqlarının işğalı əlavə torpaq sahələrinin qəsb edilməsindən daha çox Ermənistanın korrupsiyalaşmış siyasi hakimiyyətlərinin cinayət məqsədlərinə xidmət edib. Bu ərazilərdən onlar müxtəlif zamanlarda öz fərdi, şəxsi maraqlarını təmin etməyə çalışıblar. Azərbaycan isə işğaldan azad etdiyi əraziləri yenidən qurur. Bu ərazilərdə artıq qısa müddətdə böyük işlər görülüb. Mahiyyət etibarı ilə Azərbaycan xalqı qurucudur və yaradıcıdır. Ayaq basdığı hər yerdə öz mədəni izlərini qoyur. Bu aspektdən də düşünürəm ki, cənab Prezidentin Hardrut səfəri həm də bütün dünyaya Azərbaycanın çatdırmaq istədiyi mesajların verilməsi baxımından mühüm oldu".

***Turqay Musayev***

# Kamil Əliyevin 100 illik yubileyi qeyd ediləcək - SƏRƏNCAM



**Prezident İlham Əliyev Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam verib. Sərəncamda qeyd edilir ki, 2021-ci ildə Azərbaycan xalça rəssamlığı sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, professor Kamil Müseyib oğlu Əliyevin anadan olmasının 100 illiyi tamam olur.**

Kamil Əliyev bütün ömrünü xalqımızın mədəniyyəti tarixində müstəsna yer tutan xalçaçılıq sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına sərf etmişdir. Fitri istedada malik rəssam milli naxış elementlərindən uğurla bəhrələnərək rəngarəng dekorativ motivlər yaratmış, Azərbaycan xalçaçılığı və tətbiqi sənətini daim yeni ornamentlərlə zənginləşdirmişdir. Kompozisiya özünəməxsusluğu, rəng ahəngdarlığı və süjet əlvanlığı rəssamın Azərbaycan xalçaçılıq məktəblərinin xüsusiyyətlərini özündə cəmləşdirən çeşnilər əsasında toxunmuş xalçalarının başlıca səciyyəvi cəhətləridir. Onun qüdrətli söz dühalarına, görkəmli siyasi xadimlərə həsr olunan və yüksək professionallığı, bədii-estetik mükəmməlliyi ilə seçilən portret-xalçaları incəsənətimizin qızıl fondunun qiymətli nümunələrindəndir. Kamil Əliyevin əsərləri dünyanın mötəbər muzey, qalereya və sərgi salonlarında dəfələrlə nümayiş etdirilmişdir. Böyük sənətkar xalçaçı kadrların hazırlanması işinə mühüm töhfələr vermişdir.

Azərbaycan xalçaçılığı və dekorativ-tətbiqi sənəti ənənələrinin qorunub saxlanılmasında və yeni inkişaf mərhələsinə yüksəldilməsində görkəmli xalçaçı-rəssam Kamil Əliyevin təqdirəlayiq xidmətlərini nəzərə alaraq qərara alınır:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# İranda "Qarabağ Azərbaycandır" deyənlərə həbs və ŞALLAQ CƏZASI!



İran məhkəməsi ötən ilin Azərbaycan ordusuna dəstək məqsədi ilə Ərdəbilin Ciral parkında aksiya keçirmiş 12 nəfər azərbaycanlı fəala hökm oxuyub. SİA-ya daxil olan məlumata görə, hökmdə bildirilir ki, Hüseyn Balaxani, Əsgər Əkbərzadə, Mustafa Pərvin, Murtaza Pərvin, Müctəba Pərvin, Həmin Heydəri, Məhəmməd Colani, Səccad Colani, Sübhan Bəxşi, Mehdi Xuşmənd, Pərviz Siyabi və Bəhmən Xeyrcu hərəsi ayrı-ayrılıqda hüquq-mühafizə orqanlarının tələblərinə məhəl qoymadıqlarına görə 7 ay 16 günlük həbs cəzası alıblar.

Fəallara ictimai sabitliyi pozduqlarına görə bundan əlavə 74 şallaq cəzası da kəsilib.

Qeyd edək ki, Qarabağın erməni işğalından azad edilməsi uğrunda Vətən müharibəsinə başlayan Azərbaycan ordusuna dəstək məqsədi ilə İranın bir çox əyalətlərində və şəhərlərində soydaşlarımız tərəfindən kütləvi dəstək aksiyaları keçirilib. Onlardan biri də 2020-ci ilin 28 sentyabrında Ərdəbilin Ciral parkında baş tutub. Polis aksiya iştirakçılarına qarşı aşırı zor gücü tətbiq edərək onları döyüb və həbs edib.

Cənubi Azərbaycanın digər bölgələrində, eləcə də Tehranda keçirilən aksiyalarda çoxsaylı soydaşlarımız saxlanılaraq məhkəmələr qarşısına çıxarılıblar. Onların təşkilatçıları saxlanılsalar da, sonradan müəyyən edilmiş girovlar müqabilində müvəqqəti olaraq azadlığa buraxılıblar. Lakin məhkəmələr öz işlərini davam etdirirlər.

***Rövşən***

# Qalib xalqın müzəffər lideri



**Sözün əsl mənasında, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət olan cənab İlham Əliyev, Ulu Öndər Heydər Əliyevin əmin etdiyi kimi, xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər gördü, hələ də bu istiqamətdə işlər görməkdədir və həqiqətən də, məqsədyönlü, uğurlu siyasət yürütdüyü də günün reallığıdır. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", deyən Ümummilli Lider Heydər Əliyevin haqlı olduğu artıq çoxdandır ki, öz təsdiqini tapıb.**





Xatırladığımız kimi, hələ 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirmişdi. "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək", deyə xalqı əmin etmişdi Ümummilli Liderimiz. İndi təkcə Azərbaycan xalqı deyil, Ali Baş Komandanın rəhbərliyi, uzaqgörənliyi, liderliyi, qətiyyəti və bacarığı ilə torpaqlarımızın işğaldan azad olunduğunun şahidi olan bütün dünya ictimaiyyəti belə Ulu Öndərin dediklərinin həqiqət olduğuna artıq tam əmin oldu.

ATƏT-in Minsk Qrupunun timsalında dünyanın bir çox beynəlxalq təşkilatlarının həll edə bilmədiyi məsələləri məhz cənab Prezident İlham Əliyevin həll etdiyi, BMT-nin məlum qətnamələrinin icrasını həyata keçirdiyi günümüzün reallığıdır. Az qala 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqların bu müddət ərzində işğaldan azad olunmasına nail ola bilməyən beynəlxalq təşkilatlar, qurumlar Ali Baş Komandanın cəmi 44 gün ərzində bu məsələni həll etdiyinin, onun rəhbərliyi, uzaqgörənliyi, qətiyyəti sayəsində ordumuzun torpaqları işğaldan azad etdiyinin şahidi oldular. Təkcə bu məqam dövlət başçımızın liderlik keyfiyyətləri barədə fikir formalaşması üçün yetərlidir. Çünki cəbhədə əldə olunan qələbələr təsadüfi deyildi və ölkə başçısının illər boyu gördüyü işlərin, məqsəyönlü, uğurlu fəaliyyətinin, əzminin təntənəsi, məntiqi nəticəsi idi.

Güclü iqtisadiyyata, güclü orduya sahib olmaq, qətiyyətli addımlar atmaq, ölkənin suverenliyini qorumaq, ərazi bütövlüyünü bərpa etmək üçün güclü siyasi iradə nümayiş etdirmək, düşünülmüş, uzaqgörən, uğurlu siyasət aparmaq lazım idi və cənab Prezident İlham Əliyevin bunun öhdəsindən layiqincə gəldiyinə kimsənin indi zərrə qədər şübhəsi belə ola bilməz. Ona görə ki, reallıqlar göz önündədir və hər kəs də bunun, bu reallıqların şahididir. Hər kəs bunun şahididir ki, başda suverenliyinin qorunub saxlanması, ərazi bütövlüyünün təmin edilməsi, qorunması, iqtisadi qüdtərinin, nüfuzunun artırılması olmaqla, Azərbaycan öz məqsədlərinə nail olmaqda davam edir, inkişafını da günü-gündən artırır. Bütün bunlar ölkə başçısının, cənab Prezident İlham Əliyevin yürütdüyü doğru, dürüst, şəffaf və uğurlu siyasət sayəsindədir.

Görünür, 2003-cü il, 15 oktyabr tarixində keçirilən seçkilərdə seçicilərin 76 faizdən çoxunun cənab İlham Əliyevə səs verməsi təsadüfi deyildi. Şübhəsiz ki, xalq öz səsini Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə, ölkədə sabitliyin davamlı olaraq qorunmasına vermişdi və qısa bir zamanda yanılmadığına əmin oldu. Ümummilli Liderin siyasi kursuna sadiqliyini, sevgisini nümayiş etdirən xalqımız ona inamını da sübut etdi, sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu təsdiqlədi və ölkədə bu siyasətə alternativin olmadığına əminliyini ifadə etdi. Əlbəttə, əbəs yerə deyildi ki, cənab İlham Əliyev xalqın səsinin mütləq əksəriyyətini qazandı və artıq çoxdandır ki, bu seçimin doğru olduğu hər mənada öz təsdiqini tapıb.

Ölkəmizdə dayanıqlı inkişaf üçün atılan addımlar əsaslı addımlardır və cənab Prezidentin bu istiqamətdə etdikləri səbəbsiz deyil. Prezidentliyinin ilk ilindən cənab İlham Əliyev müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində qətiyyətli addımlar atdı və hər kəs gördü ki, ideoloji əsaslarımızın və vətəndaş həmrəyliyinin möhkəmlənməsinin əsasını, təməlini Azərbaycan xalqının, Azərbaycan dövlətinin milli maraqlarının qorunması təşkil edib. Məzh bu siyasət, bu strategiya həmrəyliyi daha da möhkəmləndirib və hətta bu siyasət sayəsində müttəfiqlərimizin belə sayı durmadan artıb, yenə də artmaqdadır. İndi Azərbaycanın dostlarının sayının daha da artması sıradan bir hadisə, yaxud da təsadüfi deyil, ölkə başçısının yürütdüyü uğurlu siyasət sayəsindədir və bunu bütün dünya ictimaiyyəti də görür.

Ölkəmizin neft-qaz sahəsində qazandığı uğurlar, onların iqtisadi inkişafa verdiyi töhfələri danmaq mümkünsüzdür. Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış edən Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması Azərbaycanın dünya enerji sənayesində həlledici rolunun olduğunu isbatlayır. Asiyanı Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı, Azərbaycan neftini birbaşa dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi çox möhtəşəm, çox nəhəng layihələrdəndir. Etiraf etmək lazımdır ki, bütün bu sadalananlar dövlət başçısının, cənab İlham Əliyevin uğurlu siyasəti, uzaqgörənliyi, liderlik qabiliyyəti sayəsində reallaşıb və ölkəmiz üçün, iqtisadi inkişafımız üçün, nəticədə də suverenliyimizin qorunub saxlanması, təhlükəsizliyimizin təminatı üçün mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, bütün bunlar Azərbaycanın bütün dünyada artan rolunu, beynəlxalq münasibətlər sistemində müstəqilliyini təsdiq və təmin edir.

Ölkə başçısının rəhbərliyi ilə aparılan uğurlu siyasət sayəsində Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, eləcə də ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir və cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 18 ildə bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Daha dəqiq desək, cənab Prezident xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirib. Ən vacib olanı isə, dövlət başçısının sayəsində ölkəmizdə siyasi sabitlik hökm sürür və bu da öz növbəsində, gələcək inkişaf üçün də əsaslı zəmin yaradır.

Azərbaycanda təkmil siyasi sistem artıq bərqərar olunub deməkdə, hər kəs haqlıdır. Çünki hüquq və azadlıqların təmin olunması istiqamətində görülən tədbirlər, qanunvericilik bazasının təkmilləşdirilməsi, plüralizmin, çoxpartiyalı sistemin inkişafı göz önündədir və bütün bunlar ölkəmizdə demokratik cəmiyyətin daha da inkişaf etdiyini göstərir. Ümumiyyətlə, demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətləri görməmək mümkün də deyil və cənab Prezidentin xalqımız qarşısındakı misilsiz xidmətlərindən bəhs edərkən bütün bunları da vurğulamaq yerinə düşərdi. Ona görə ki, ölkəmizdə demokratik cəmiyyətin inkişafına dövlət başçısının töhvəsi misilsizdir və bunun da hamı şahididir.

Ümumiyyətlə, görülən işlərin hər biri, yürüdülən siyasət təsdiq edir ki, cənab Prezident İlham Əliyevin apardığı siyasətin, sosial siyasətin mərkəzində insan amili, vətəndaş amili dayanır. Vətəndaşların hüquq və azadlıqların təmin olunması ilə yanaşı, onların sosial rifah halının daha da yaxşılaşdırılması üçün iqtisadiyyatın inkişafı ölkə rəhbərinin daim diqqət mərkəzindədir. Bir-birinin ardınca reallaşdırılan sosial layihələr iqtisadiyyatımızın güclü olması sayəsində mümkün olur və ölkə iqtisadiyyatının gücləndirilməsi vətəndaşların rifah halına, yaşayış səviyyəsinin daha da yaxşılaşdırılmasına öz müsbət təsirini göstərməkdədir. Bir sözlə, ölkəmizin iqtisadi qüdrətinin artması vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə əsaslı zəmin deməkdr. Beləliklə, bəlli olur ki, ölkə başçısının daxili siyasət kursunun çox mühüm istiqamətlərindən birini məhz sosial siyasət təşkil edir, sosial dövlət fəlsəfəsinin əsasında isə hər bir vətəndaşın layiqli həyat şəraitinin təmin edilməsi prinsipi durur. Ölkəmizdə qaçqın və məcburi köçkünlərə 30 ilə yaxın bir dövr ərzində göstərilən qayğı məhz bu siyasətin, sosial siyasətin fonunda, sosial dövlət fəlsəfəsinin əsasında reallaşıb.

Ən vacib məsələ, məqsəd suverenliyin, təhlükəsizliyin qorunması, ərazi bütövlüyünün bərpası, ölkəmizin hərtərəfli inkişafı, vətəndaşlarımızın firavan yaşayışı olub hər zaman. Məhz bu səbəbdən də, ölkə başçısının rəhbərliyi ilə görülən işlərin məntiqi nəticəsi olaraq, ermənilərin 30 ilə yaxın müddətdə işğal altında saxladıqları torpaqlar çox qısa zamanda işağldan azad edilib. Artıq Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi və buna görə bizim hamımız, ilk növbədə, Ali Baş Komandana, müzəffər Azərbaycan Ordusuna, canını sipər edən əsgər və zabitlərimizə, hərbçilərimizə, şəhidlərimizə, qazilərimizə borcluyuq və xalqımızın həmrəyliyi də burada xüsusilə vurğulanmalıdır. Etiraf edək ki, işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması görülən işlərin məntiqi nəticəsidir. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü ilə Azərbaycanın haqq işi uğrunda mücadiləsi, tarixi ədalətin bərpası üçün apardığı müharibə, nəhayət, zəfərlə yekunlaşdı. Məhz Ali Baş Komandanın 17 illik gərgin əməyinin, səylərinin, qətiyyətinin, uzaqgörənliyinin, liderlik qabiliyyətlərinin sayəsində biz ərazi bütövlüyümüzü bərpa etdik. Bəli, məhz cənab Prezidentin yürütdüyü uğurlu siyasət və nəticədə də suverenliyimizin qorunması, ərazi bütövlüyümüzün bərpası xalqımızı bütün dünyada mübariz, müzəffər xalq kimi tanıtdı.

Bu gün də məhz cənab Prezidentin rəhbərliyi, birbaşa tapşırıqları ilə işğaldan azad olunan ərazilərimzdə bərpa və yenidənqurma işləri görülür. İşğalçıların viran qoyduğu ərazilərdə infrastruktur layihələrindən tutmuş, yaşayış binalarına, məktəblərə, baxçalara, xəstəxanalara, məscidlərə qədər tikilib-qurulması, təmin edilməsi özü də Ali Baş Komandanın qələbələri silsiləsindəndir. Çünki təkcə ermənilər deyil, eləcə də bütün dünya ictimaiyyəti dərk edir ki, bu qədər quruculuq-abadlıq işlərinin görülməsi qayıdış planının əsasını təşkil edir və bu torpaqlara məhz həmin torpaqların əzəli, əbədi sahibləri olan Azərbaycan vətəndaşlarının qayıdacağı artıq zərrə qədər də şübhə doğura bilməz. Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış özü də bir qələbədir, Ali Baş Komandanın, Azərbaycan xalqının və dövlətinin qələbəsi. Məhz bütün bunlar onu deməyə əsas verir ki, Ali Baş Komandan, cənab Prezident İlham Əliyev qalib xalqın müzəffər lideridir.

***İnam***







# Ermənistanı soyuq və qaranlıq qış gözləyir



Sülh sazişinin imzalanmasını bütün bəhanələrlə ləngidən ermənilər hazırda bütün sahələrdə dərin böhran içərisindədirlər. Enerji böhranı bu çətinliyin əsas səbəblərindən biri sayılır. Qarabağın əsl sahiblərinin qayıdışından sonra Ermənistan bu bölgədən oğurladığı enerjidən və qaçaq maldan məhrum olub. Dövlət qurumları bu məsələni nə qədər örtbasdır etməyə çalışsalar da, ölkədəki elektrik kəsintilərini, qəza adı altında yaşayış məntəqələrinə günlərlə işıq verilməməsini gizlətmək mümkün deyil. Erməni ekspertlərin fikrincə, Ermənistanın istifadə etdiyi elektrik enerjisinin 20 faizindən çoxunu Qarabağdan verilən enerji təşkil edirmiş. Belə ki, Azərbaycan erməni işğalı altında olan torpaqları azad etdikdən sonra Qarabağda olan 36 elektrik stansiyasından 30-u Bakının nəzarətinə keçib. Qeyd etmək lazımdır ki, işğal dövründə bu stansiyalar nəinki bütün zəbt olunmuş ərazini enerji ilə təmin edib, hətta Ermənistanın da enerji təchizatında iştirak edib. Hesablamalara görə, işğal olunmuş Qarabağdakı su qovşaqlarından Ermənistana 300 meqaVatt enerji ötürülürmüş ki, bu da ölkənin özündə istehsal olunan enerjidən xeyli ucuz başa gəlirmiş.

Qeyd edək ki, ölkənin ən iri enerji istehsalçısı olan Razdan istilik elektrik stansiyasında da beşinci blokun işinin dayandırılması səbəbindən ümumi hasilat təqribən yarıya qədər azalıb. İqtisadçılar enerji böhranının əsas səbəblərindən biri kimi həm də istifadə müddəti çoxdan bitmiş və qəza vəziyyətində olan Metsamor atom elektrik stansiyasının təmirə bağlanmasını göstərirlər. Belə ki, ölkənin 40 faizini elektrik enerjisi ilə təmin edən Mtsamor cari ilin may ayından təmirə dayandırılıb. Lakin təmir işlərinin bu ayın sonuna qədər tamamlanacağı planlaşdırılsa da, AES rəhbərliyi görülməli işlərin daha çox olduğunu və stansiyanın modernləşdirilməsi üçün daha çox vaxt lazım olacağını bəyan edib. Bu, o qədər də gözlənilməz olmayıb. Belə ki, Ermənistan AES-i artıq istismar müddətini çoxdan başa vurub və hazırda bütün region üçün təhlükə kəsb edir. Bundan başqa, Ermənistanın özündəki SES-lərin böyük əksəriyyəti də ciddi quraqlıq, çaylarda su səviyyəsinin kəskin azalması ilə əlaqədar məhsuldarlıqlarını 60 faizdən çox itiriblər.



Ermənistan artıq Rusiyaya müraciət edərək ölkə ərazisində daha bir AES-in inşa edilməsini xahiş edib. Lakin "Rosatom" bu məsələnin məqsədəuyğun olmadığını anlayaraq layihədən kənarda qalıb. Belə görünür ki, müxtəlif özəl şirkətlərin marağına rəğmən təqribən 5-7 milyard dollarlıq yeni AES layihəsi erməni xalqının diqqətini yayındırmaq üçün elə söhbət səviyyəsində də qalacaq.

Əslində müharibədən sonrakı dövrdə energetika sahəsində əməkdaşlıq üçün yeni reallıqlar açılıb. Azərbaycan özünü tam olaraq enerji ilə təmin edərək qonşu ölkələrə, hətta Aİ ölkələrinə, konkret olaraq Bolqarıstana da elektrik enerjisi satır. Belə ki, Energetika Nazirliyinin məlumatına görə, ölkədə cari ilin yanvar-avqust aylarında elektrik enerjisi istehsalı ötən ilin analoji dövrü ilə müqayisədə 1,1 milyard kilovattsaat artaraq 18,6 koloVattsaat təşkil edib. Məlumatda qeyd olunur ki, həmin dövr ərzində elektrik enerjisi ixracı 142 milyon kiloVattsaat artaraq 971,9 milyon kiloVattsaat təşkil edib.

Bu məqamda Ermənistanın yaxın müttəfiqi olan İranda da yaşanan enerji böhranını qeyd etmək yerinə düşər. Belə ki, cari ilin yayında İran son illər görünməmiş enerji çatışmazlığı ilə üz-üzə qalıb. Bu, ölkədə əhalinin enerjinin tez-tez kəsilməsi ilə bağlı kütləvi nümayişlərinə səbəb olub. Belə bir vəziyyətdə Ermənistanın bu qonşusunun haraya gələcəyini gözləməyinə dəyməz. Göründüyü kimi, Ermənistanın enerji sektorunda xarici ölkələrdən asılılığının yüksək olması, iqtisadi imkanlarının zəif olması və zəruri maliyyə resurslarının çatışmazlığı enerji böhranının qarşısını almağa imkan vermir. Ona görə də Ermənistanda cari ildə enerji böhranı davam edəcəkdir və yeni qiymət artımlarının baş verme ehtimalları çoxdur. Azərbaycan isə regionda faktiki olaraq yeganə ökədir ki, Ermənistana enerji böhranından çıxmaqda yardım edə bilər. Bunun üçün Yerevan Bakı ilə əməkdaşlığa münasibətdə daha konstruktiv mövqe nümayiş etdirməlidir. Əks təqdirdə, Ermənistanı soyuq və qaranlıq qış gözləyir.

***Sevinc Azadi***







# Şəhidlik zirvəsinə ucalan qəhrəmanlar!

## YAP Səbail rayon təşkilatının fəalları şəhid Nicat Şükürlünün ildönümündə iştirak ediblər



YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev və aparat əməkdaşları Vətən müharibəsi şəhidi Şükürlü Nicat Ayaz oğlunun məzarını ziyarət edib. Vətən müharibəsində qəhrəmancasına şəhid olan Şükürlü Nicat Ayaz oğlunun şəhidlik zirvəsinə ucaldığı gündən bir il ötür. Vətən müharibəsinin ilk günlərindən döyüşə atılan Şükürlü Nicat 2020-ci il oktyabrın 12-də Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir. Şəhid Nicat Şükürlünün ailə üzvləri şəhid ailələrinin, qazilərimizin, hərbçilərimizin Ölkə başçısı cənab İlham Əliyevin, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın və Yeni Azərbaycan Partiyasının hər zaman diqqət və yüksək qayğısı ilə əhatələndiklərini bildirmişlər.

**Rəfiqə**

## Zaqatalada Vətən müharibəsi şəhidlərinin ildönümü mərasimləri keçirilib



Zaqatalada Vətən müharibəsində qəhrəmancasına şəhid olan Zilban kənd sakini Serov Mütəllib Arif oğlunun, Qandax kənd sakini İskəndərov Şahin Ziyad oğlunun və Bəhmətli kənd sakini Məmmədov Ümid Bəkir oğlunun ildönümü mərasimləri keçirilib.



Anım tədbirlərində YAP Zaqatala rayon təşkilatının fəalları, Zaqatala Rayon İcra Hakimiyyətinin rəhbərliyi, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Mərasim iştirakçıları şəhidlərin məzarlarını ziyarət edib, üzərlərinə gülçiçək dəstələri düzüb, əziz xatirələrini böyük ehtiramla yad ediblər.



Daha sonra şəhidlərin ailələri ilə görüşüb, qayğı və problemləri ilə maraqlanıblar. Ailə üzvləri ölkə rəhbərliyi tərəfindən onlara göstərilən diqqət və qayğıdan məmnun olduqlarını ifadə ediblər.

## Şəhid Asim Quliyevin anım günü geyd olunub







44 günlük Vətən Müharibəsində şəhid olmuş Asim Bəkir oğlu Quliyevin anım günü geyd olunub. Tədbirdə Cəbrayıl və Sabunçu rayon İcra Hakimiyyətlərinin nümayəndələri, YAP Cəbrayıl və Sabunçu rayon təşkilatlarının fəalları, o cümlədən şəhidin təhsil aldığı məktəbin kollektivi, döyüş yoldaşları, içtimaiyyət nümayəndələri iştirak ediblər. Tədbirdə çıxış edən YAP Cəbrayıl rayon təşkilatının səlahiyyətlərini icra edən Arif Fərzəliyev bildirib ki, Azərbaycanın müzəffər ordusu cəmi 44 gün ərzində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanında misilsiz hərbi zəfər qazandı, erməni ordusunu darmadağın etdi. Vətən müharibəsində şəhid olan hərbçilərimizin ailələrinin sosial problemlərinin hər zaman dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanıldığını deyən A.Fərzəliyev əlavə edib ki, Azərbaycan xalqı Qarabağın azadlığı uğrunda tarix yazan qəhrəmanlarımızı daim fəxrlə və iftixarla anacaq.

Daha sonra şəhid A.Quliyevin xatirəsinə ucaldılmış bulaq kompleksinin açılış mərasimi keçirilib.

## Şəhid Məhəmməd Səmədovun ildönümü mərasimi keçirilib



YAP Sabunçu rayon təşkilatının sədri Misirxan Vəliyev, partiya nümayəndələri və Milli Məclisin deputatı Əliabbas Salahzadə Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan Səmədov Məhəmməd Niman oğlunun ildönümü mərasimində iştirak ediblər.

Xalqımızın Vətən uğrunda canını qurban verən igidlərimizlə qürur duyduğunu deyən Misirxan Vəliyev şəhidlərimizin əziz xatirəsinin qəlblərdə əbədi yaşayacağını vurğulayıb.





Qeyd edək ki, Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Səmədov Məhəmməd ölümündən sonra Prezidentin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



**Rəfiqə Kamalqızı**

## YAP Şamaxı rayon təşkilatında qazilərlə görüş keçirilib

YAP Şamaxı rayon təşkilatının qərargahında partiyanın fəal gəncləri, Şamaxı dövlət regional kollecinin tələbələri ilə Vətən müharibəsi qaziləri arasında görüş keçirilib.

YAP Şamaxı rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Bəxtiyar Abbasov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən bəhs edib.

O, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda əsgər və zabitlərimizin göstərdikləri şücaətlərin hər birimizdə sonsuz iftixar hissi doğurduğunu qeyd edib.





Görüşdə çıxış edən YAP Şamaxı 5 saylı ərazi ilk partiya təşkilatının sədri Rəfael Tağızadə və Vətən müharibəsi Qaziləri Eynalov Mirhüseyn, Məmmədli Elvin və Sədrayev Sədrə Vətən müharibəsində şanlı ordumuzun göstərdiyi şücaətlərdən danışıblar. Qazilər göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildiriblər.

**Zümrüd**

AKTUAL + ANALİTİKA

# Azərbaycanda islam modeli: müsəlman dünyası üçün etalon

## Ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət-din münasibətləri tendensiyası daim paralellik təşkil edib

**Azərbaycanda dinə olan münasibət daim özünəməxsus özəllikləri ilə seçilib və demək olar ki, heç vaxt sözügedən xüsusda din və cəmiyyət kontekstində parçalanmalara yol verilməyib. Müxtəlif zamanlarda islamçılıq modelləri fərqli müsəlman ölkələrində fərqli şəkildə tətbiq edilsə də, Azərbaycanda mövcud olan tolerantlıq faktoru öz üstünlüyü ilə seçilib və yalnız islama tərəf deyil, digər dinlərə münasibətdə də müasir dünyamızın qlobal çağırışlarına cavab verilir.**

Lakin fakt budur ki, Azərbaycan müsəlman ölkəsi olaraq həm də islam dünyası üçün mühüm modelini nümunə etalonu olaraq təqdim edir. Ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət-din münasibətləri tendensiyası daim paralellik təşkil edib. Bu gün Azərbaycanda dövlət strukturu olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Bu qurum məscidlərin, müqəddəs məkanların fəaliyyətindən tutmuş digər tələb edilən cəhətlərinə dövlət nəzarəti mexanizmini həyata keçirir. O cümlədən, müsəlman dünyası üçün vacib olan bütün əhəmiyyətli təqvimlərdə öz funksiyasını icra edərək hər hansı bir aşırı dinçiliyin, xurafatın və s. sui-istifadəçiliklərin qarşısını alır. Bunun üçün dini ədəbiyyat külliyyatları, kitablar nəşr edilir, proqramlar hazırlanır, KİV sahəsində və s. sahələrdə təbliğat xarakterli layihələr həyata keçirilir və s.

### Digər müsəlman ölkələrindən fərqli olaraq "sünni-şiə" kimi ayrıseçkilik meyillərinin ayaq açmasına imkan verilmir

O cümlədən, bu gün Azərbaycanda bütün Qafqazın dini mərkəzi kimi tanınan Qafqaz Müsəlmanları İdarəsi də fəaliyyət göstərir ki, bu idarə də dini qurumlarla məşğul olan komitə ilə müştərək işlər reallaşdırır. Ümumiyyətlə, Azərbaycanda məzhəbçilik, radikalçılıq, yaxud xurafatçılıq kimi islam dininə zidd olan bütün maneələr aradan qaldırılır, ibadət edən şəxslər arasında heç bir fərqlər qoyulmur, necə deyərlər, digər müsəlman ölkələrindən fərqli olaraq "sünni-şiə" kimi ayrıseçkilik meyillərinin ayaq açmasına imkan verilmir.

Eləcə də fakt budur ki, Azərbaycan Şərq və Qərbin ayrıc nöqtəsində yerləşdiyinə görə, hər zaman kənar müdaxilələrə cəhdlər olunsa da, bu cəhdlərin qarşısı məhz məzhəb, din fərqlərinə baxmayaraq, ölkəmizin inanclı kəsimləri tərəfindən rədd edilib. Beləliklə, Azərbaycanda islam dini modeli həm müasir dünyamızla ayaqlaşır, həm də kənar zərərli müdaxilələrdən maksimum şəkildə qorunur.

Bu gün Azərbaycanda dini etiqad azadlığı ilə yanaşı, həm də ibadət edən qadınların da azadlığı, onların haqlarının qorunması, hüquqlarının təmin edilməsi yönündə heç bir maneələr yaradılmır. Təkcə bir maraqlı və mühüm misalı göstərə bilərik: ibadət edən qadınların bir hissəsi ictimai yerlərdə çadra, hicab, ya da çarşab kimi örtüklərdən istifadə etmir, yalnız məscidlərə daxil olarkən, islam dininə hörmət əlaməti olaraq islamın buyurduğu qaydalara əməl edirlər. Yəni küçədə kimsə namaz qılan, ibadət edən qadına deyə bilməz ki, sən niyə başını bağlamırsan, sən nəyə görə örtünmürsən və s.

Daha bir reallıq: İslam təqviminin önəmli tarixlərində qeyd edilən bayram və matəm mərasimlərində də heç kim məcburi qaydada həmin mərasimlərə qatılmır, hər kəs öz xoşu və iradəsi ilə hərəkət edir. Ümumiyyətlə, dövlət-din tənzimləmələrində xalqımızın inanclı kəsimi hadisələrə tolerantlıqla yanaşırlar və tarixən də belə olub. Lakin daha bir məsələ isə digər ölkələrdəki islam modelləri ilə fərqliliyin olmasıdır.

### Səudiyyədə müəyyən "yaşıl işıqlar" yandırılmaqla qadınlara yönəlik imtiyazlar verilməkdədir

Misal üçün, bu gün Səudiyyə Ərəbistanı islam dünyasının mərkəzi olması ilə yanaşı, həm də ciddi mühafizəkarlıq metodlarını tətbiq edir. Təbii ki, bu səbəblərdən biri də din və dövlət idarəçiliyinin bir arada olmasıdır. Daha dəqiq desək, bu ölkədəki qanunlar bilavasitə şəriət qaydaları əsasında fəaliyyət göstərir. Amma buna baxmayaraq, son vaxtlar Səudiyyədə də müəyyən "yaşıl işıqlar" yandırılmaqla qadınlara yönəlik imtiyazlar verilməkdədir. Xüsusilə, qadınlara verilən azadlıqlar baxımından. Bu gün mühafizəkar Səudiyyə Ərəbistanında qadınlar artıq avtomobil idarə edə bilir, əlavə olaraq, siyasətə də qatılaraq ölkə parlamentinə seçilmək imkanları əldə edirlər. Əlbəttə ki, bu kimi məsələlərdə də dövlət tərəfindən müəyyən dərəcəli hədlər qoyulub.

### Türkiyədə dini qaydaları fərdi olaraq tətbiq etmə və ya etməmə azadlığı konstitusiya ilə qorunur

Qardaş Türkiyə modeli də öz məxsusi özəllikləri ilə seçilməkdədir.Türkiyə də qardaşı Azərbaycan kimi müsəlman ölkəsi olması ilə yanaşı, həm də dünyəvi dövlətdir. Bu səbəbdən də din və dövlət işləri bir-birindən ayrılıb. Konstitusiyaya görə dini və ya etnik bir siyasi partiyanın yaradılması qadağandır. Respublikanın ilk illərində dinin dövlətin nəzarəti xaricində aparılmaması və dövlət tərəfindən xüsusi orqanlar vasitəsilə nəzarət edilməsinə qərar verilib. Bu qərara əsasən Diyanət İşləri Nazirliyi, Baş Nazirliyə bağlı bir təşkilat olaraq fəaliyyət göstərir. Bu orqan fərdlərə dini xidmətlər göstərmək və məscidlər kimi müsəlman ibadət yerlərini idarə etməkdən məsul tutulur. Habelə, ölkədə dini etiqad və inamsızlıq, dini qaydaları fərdi olaraq tətbiq etmə və ya etməmə azadlığı konstitusiya ilə qorunur.

### İranda qadınların şirəli içkilər içdiklərini, kişi ofisiantların onlara xidmətlərini əks etdirən görüntülərinə qadağalar qoyulub

Ancaq bənzər icazələrin digər şəriətlə idarə edilən ölkədə İran İslam Respublikasında da tətbiq olunmasına baxmayaraq, son vaxtlar qadın azadlığı və hüququ ilə bağlı ciddi baryerlər qoyulmaqdadır. Bu günlərdə qəbul edilən qanun, yaxud verilən fətvaya əsasən, İran televiziyalarındakı süjetlərdə, eləcə də yazılı, elektron media qurumlarında qadınların şirəli içkilər (xüsusilə qırmızı rəngli) içdiklərini və ya kişi ofisiantların onlara xidmətlərini əks etdirən görüntülərini nümayiş etdirmək qadağan olunub. Düzdür, bu gün İranda qadınlar avtomobil idarə edir, parlamentə seçilir, müxtəlif dövlət qurumlarında fəaliyyət göstərirlər, amma belə gedərsə, ölkədə bu xüsusda da qadağaların qüvvəyə minməyəcəyini kimsə iddia edə bilməz.

### Qurani Kərimdə yer alan Ayətül-Kürsidə ən önəmli Allah kəlamı yer alıb - "Lə ikrahə fiddin"

Və maraqlıdır ki, bu gün Azərbaycanda da mövcud olan, eləcə də "irançı" adlandırılan bəzi dırnaqarası "mömin" və "möminələr" sözdə "islam respublikası" adı altındakı sərsəm ideyalarını ən radikal və dağıdıcılıq yolları ilə tətbiq olunmasını tələb edir, qeyri-qanuni çağırışlar etməklə ölkəmizdəki sivil, demokratik və müasir dünya ilə ayaqlaşan konstitusion quruluşuna qarşı İrandakı ağalarının "fətvalarını" icra etməklə cəhdlər göstərirlər. Söz yox ki, bu cəhdlərin də qarşısı alınır - xalq-dövlət vəhdəti, habelə dinçi, məzhəbçi radikalizmə yox deməyi bacaran vətəndaşlarımız bu kimi zərərli tendensiyaların qarşısını qətiyyətlə alır.

Sonda isə bir reallığı xatırlatmaq yerinə düşərdi. Müqəddəs Qurani Kərimdə yer alan Ayətül-Kürsidə ən önəmli Allah kəlamı yer alıb - "Lə ikrahə fiddin", yəni Dində məcburiyyət yoxdur!

Və əgər kimlərsə öz kirli maraqlarını həm də sui-istifadə etdiyi islam dini ilə xalqa sırımağa cəhdlər göstərirlərsə, onlar biavasitə Allahın kəlamlarına qarşı çıxmış olurlar. Yəni qısa desək, bu gün islam dinindən öz şəxsi mənfəətləri, qazanc mənbəyi , kirli siyasi maraqları yönündə istifadə edənlər gerçəklikdə bu pak, təmiz və mənəvi dəyərləri təbliğ edən İlahi sözləri yerdən-yerə vurmuş olurlar. Bu varsa, demək ki, belələrinin nə islama, nə müsəlmançılığa, nə də ümumiyyətlə, imana heç bir aiddiyyatları yoxdur, ola da bilməz!

### Bu gün Allah ona dua edən əsl ibadət edənlərin və o cümlədən, Azərbaycanın yanındadır!

Azərbaycan dövləti isə öz qürurlu, zəfərli yolunu davam etdirir və bu gün ölkəmizin bütün bölgələrində dinin demokratik təbliği, sivil mövcudluğu yönündə münbit addımlar atılır - İlahiyyat üzrə ali tədris müəssisələri fəaliyyət göstərir, yerlərdə mədrəsələr, Quran kursları açılır, məscidlər tikilir və inanclı vətəndaşların istifadələrinə verilir. Bugünlərdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin erməni



işğalından azad edilmiş Hadrut qəsəbəsini ziyarət etməsi və orada böyük və gözəlliyi ilə hər kəsi heyran edəcək məscidin inşa olunması barədə fikir bildirməsi, habelə daha əvvəl Onun ölkəmizin birinci xanımı Mehriban Əliyeva ilə birgə işğaldan azad edilmiş digər torpaqlarımızda viranə qoyulmuş məscidlərimizi ziyarət etməsi, ibadət məkanlarına müqəddəs Quran kitablarını hədiyyə etməsi - bütün bunlar bilavasitə Allaha olan bağlılığın, imanın bariz göstərici kimi də dəyərləndirilməlidir. Bu gün Allah ona dua edən əsl ibadət edənlərin və o cümlədən, Azərbaycanın yanındadır!

***Rövşən RƏSULOV***

---

## "Müharibə cinayətkarları mütləq layiq olduqları cəzaları alacaqlar"

"Moskvada üç ölkənin xarici işlər nazirlərinin 11 saat davam edən danışıqlarından sonra 10 oktyabr 2020-ci il tarixdən humanitar atəşkəs barədə razılıq əldə olundu. Çəkdiyi imzaya sadiq olan Azərbaycan rəhbərliyi silahlı qüvvələrə atəşi dayandırmaq barədə tapşırıq verdi və ordumuz yüksək intizam nümayiş etdirərək atəşkəsə əməl etdi". Bunu SİA-ya açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, ancaq imzalanmadan bir neçə saat keçməmiş Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə Ermənistanın Berd rayonundan raket atəşinə tutuldu: "Bu vəhşi hücum nəticəsində 8 nəfər həlak oldu, 34 nəfər (16 qadın, 6 uşaq) yaralandı, 10-dan artıq yaşayış evi, 100-dən yuxarı mülki obyektlər zərər gördü.

Ermənilərin Berd rayonundan Gəncəni raket atəşinə tutmasında əsas məqsəd Azərbaycanı təxribata çəkmək və Ermənistan ərazisinin bizim tərəfimizdən atəşə tutulmasına nail olmaq idi. Yalnız bu halda KTMT-ni hərbi əməliyyatlara cəlb etmək mümkün ola bilərdi. Lakin Azərbaycan rəhbərliyi bu təxribata uymadı və Ali Baş Komandan - "biz dinc əhali ilə müharibə aparmırıq, həlak olan həmvətənlərimizin qisasını döyüş meydanında alacağıq!"-dedi.

Həmin günlərdə hamıya məlum idi ki, Ermənistan ərazisindən Gəncəyə raket atılması barədə göstərişi yalnız erməni silahlı qüvvələrinə rəhbərlik edən Baş nazir Nikol Paşinyan tərəfindən verilə bilər. Baxmayaraq ki, ermənilər bu iddiaları təkzib edir və ümumiyyətlə, raketin Ermənistan ərazisindən atıldığını boyunlarına almırdılar, dövlətimizin rəsmi şəxsləri faktlar əsasında bunu sübut etdilər.

Bu gün N.Paşinyan hələ cinayət məsuliyyətinə cəlb olunmayıb. Dinc Azərbaycan əhalisinə raket hücumu barədə əmr verməsi ilə qürrələnən A.Arutyunyan da, Xocalı faciəsinin əsas təşkilatçılarından olan V.Sarqsyan da hələ layiq olduğu cəzanı almayıblar. Ancaq həm onlar, həm də digər müharibə cinayətkarları məsuliyyətə cəlb olunacaq və mütləq layiq olduqları cəzaları alacaqlar".

***GÜLYANƏ***

# Bu şəxs ABŞ-ın Azərbaycandakı növbəti səfiri ola bilər (?)

ANALİTİK

**Biz ictimaiyyətə ABŞ Azərbaycandakı səfirinin tezliklə dəyişəcəyi və bu səbəbdən, hazırkı səfirin ABŞ-ın dövlət departamenti və Konqresi tərəfindən ölkəmizə qarşı olan əsassız hücumlarla bağlı susqunluğu haqqında məlumat vermişdik:**

https://sia.az/az/news/politics/895195.html



Eyni zamanda qeyd etmişdik ki, ABŞ-ın yeni səfirlərinin təyinatı, adətən, payız aylarında baş verir ki, yeni səfirlər növbəti ildən təyinatla ölkələrində fəaliyyətə başlasınlar.

Lakin belə görünür ki, Azərbaycana yeni səfir təyin etmək ABŞ üçün bir o qədər də asan olmayacaq. Sözügedən prosesin nə qədər çətin olacağı, artıq ABŞ-ın Türkiyəyə yeni səfir təyin olunması prosesindən də göründü və belə bir ehtimalı daha çox artırdı.



Bir daha xatırlada bilərik ki, səfirlərin təyinatını təsdiq edən Senatın Xarici Əlaqələr Komitəsinə hazırda Bob Menendes-Arslanyan rəhbərlik edir və o, ermənilərin himayədarı ilə yanaşı, həm də yeznəsi olaraq hər fürsətində türklərə qarşı siyasi hücumlar etmək imkanlarını əlindən buraxmır. Təkcə əlimizdə olan bir diqqətçəkən amili göstərə bilərik. Belə ki, bir neçə gün öncə Ağ evin Türkiyəyə fövqəladə və səlahiyyətli səfir təyin etmək istədiyi Cef Fleykin (Jeff Flake) namizədliyi müzakirə edilərkən, Menendes-Arslanyan namizəd qarşısında sual qoydu ki, o - yəni Cef Fleyk "24 aprel" tarixini "erməni sıyqırımı günü" kimi qeyd edəcəkdirmi? Namizəd "bəli" cavabı verdi.

Baxın, ABŞ-da rəsmi vəzifələrə təyin olunanlar prezidentlər kimi ölkə Konstitusiyasına və Bibliyaya and içirlər, fəqət bu gün Bayden administrasiyasının ermənipərəst dairələri sanki həmin rəsmi ənənəyə qeyri-rəsmi dəyişiklər ediblər, yəni diplomatik və dövlət səviyyəli vəzifələrə təyin olunarkən şəxslər həm də erməni saxtakarlıqlarına sadiq qalacaqları ilə bağlı etiraflar etməlidirlər (?!). Bu da Amerikadakı erməni lobbisinin dövlət siyasətinə necə güclü təsir etməsinin bariz nümunəsi və eyni zamanda, ABŞ-ın adına olan rüsvayçılıqdır!

Sözügedən situasiyadan sonra Türkiyə hökuməti özünün rəski tvitter səhifəsində belə bir payaşım etmişdi və qeyd olunmuşdu ki, beynəlxalq konvensiyalara görə, səfiri qəbul edən ölkə onun təyinatına razılıq verməlidir (AGREMAN-Fransız sözü R.R.) və belə hallar davam edərsə, Türkiyə hökuməti mənfi cavab da verə bilər.

İndi təsəvvür edin ki, uzun illər ABŞ-ın siyasi və NATO çərçivəsində müttəfiqi olan bir ölkəyə - Türkiyəyə səfir təyinatı belə bir qərəzli tonda müşahidə olunursa, görün Azərbaycana ediləcək yeni səfir təyinatında hansı problemlər yarana, qərəzə hesablanmış süni iddialar baş qaldıra bilər...

Xüsusilə də unutmayaq ki, Azərbaycanın öz torpaqlarını güc hesabına qaytarması və ABŞ-ın bu poseslərdən kənar qalması ABŞ-ın müəyyən siyasi dairələri tərəfindən ölkəmizə qarşı genişmiqyaslı hücumların baş verməsinə gətirib-çıxarıb.

Eyni zamanda, xatırlatmalıyıq ki, məhz "inqilablar mühəndisi", milyarder Corc Sorosun maliyyəsi və saxtakarlıqları vasitəsi ilə hakimiyyətə gətirdiyi Bayden iqtidarı beynəlxalq siyasi arenadakı bütün cinahlarda demək olar ki, aşkar məğlubiyyətlərə məruz qalır. Üstəlik, Amerikada Baydenə qarşı inamsızlıq, etimadsızlıq sindromları cücərir, zaman-zaman impiçment tələbləri də gəlməyə başlayır. Bu, hələlik, sadə amerikalıların qığılcımlarıdır...

Baş verən proses əsasən amerikalı hərbçilərin Əfqanıstandan xaotik qaçışından sonra daha da sürətlənib. Bu faktor Soros-Bayden planlarını iflasa uğrada, mövcud iqtidarın dayaqlarını laxlada bilər.

Belə bir vəziyyətdə isə mümkün ehtimallar yaranır və sual verilə bilər ki, həmin onlar hansılardır? Soros çalışır ki, hər hansı bir məsələdə ABŞ-ın siyasətinə uğur qazandırsın və Bayden iqtidarına qarşı xalq etirazları baş qaldırmasın. Yəni az da olsa uğur qazanmağa ehtiyac var. Bunun üçün isə Soros ilk növbədə çalışacaq ki, başa çatmış Qarabağ münaqişəsi siyasi cəhətdən yenidən dirçəlsin. Hazırda Ağ ev son dərəcə mürəkkəb axtarış prosesindədir ki, bu tipli mesajları ilə Azərbaycan elə bir namizəd göndərsin ki, Azərbaycan həmin şəxsi heç olmasa ölkəyə buraxsın.

Seçim kriteriyası isə kifayət qədər sərtdir. Namizəd Azərbaycanın qonşu ölkələrlə, xüsusi ilə də Rusiya ilə münasibətləri haqqında məlumatlı olmalı, əvvəllər Azəbaycan hökuməti ilə işləmiş və müəyyən əlaqələrə malik olmalı, Azərbaycana müharibə zamanı dəstək olmuş ölkələrlə müəyyən dərəcədə bağlı olmalıdır.

Ekspertlərin fikrincə, hazırda bütün bu kri-




teriyalar cavab verən ən uğurlu namizəd Derek Hoqandır (Dereck J. Hogan).

Hoqan ABŞ Azərbaycandakı səfirliyində 2013-2015 illərdə missiya rəhbərinin müavini, bir müddət isə müvəqqəti işlər vəkili vəzifələri icra edib. Xüsusi olaraq qeyd etmək lazımdır ki, o ölkəmizə məhz demokratların hakimiyyəti dövründə səfirin müavini təyin olunmuş və fəaliyyəti dövründə Azərbaycanın hökumət nümayəndələri ilə sıx əlaqələr qurmuşdur. Hoqan həmin dövrlərdə çalışırdı ki, siyasi proseslərlə bir o qədər də müdaxilə etməsin.

Derek Hoqandır eyni zamanda, regionda baş verən proseslərlə tanışdır. 2007-2009-cu illərdə ABŞ-ın Rusiya səfirliyində çalışıb və 2008-ci ildə Gürcüstandakı müharibə zamanı münaqişə ilə bağlı Rusiya hökuməti ilə ünsiyyətdə olub. Rus dilini mükəmməl bilir.

Onun Rusiyadakı fəaliyyəti ilə bağlı ətraflı məlumatı buradan əldə etmək olar:

https://afsa.org/sites/default/files/iuse_profile_political_officer_russia.pdf

Ümumiyyətlə isə Derek Hoqan diplomatik fəaliyyətə 1997-ci ildə başlayıb. Maraqlıdır ki, onun indiki vəzifəsi də birbaşa bu regionla bağlıdır. Belə ki, Hoqan hazırda Dövlət Departamentinin Avropa və Avrasiya Məsələləri Bürosunda Dövlət Katibinin köməkçisinin müavinidir. Evlidir, bir qızı var.

Derek Hoqanla bağlı digər maraqlı fakt odur ki, bəzi mənbələrə görə o, ana tərəfdən yahudidir və bu fakt onun diplomatik karyerasında yardımçı olub. Eynilə bu fakt da məhz onu Azərbaycana təyin olmaq üçün uğurlu namizəd edən əlavə amildir. Belə ki, son müharibə zamanı Azərbaycan-İsrail münasibətləri inkişaf etmiş və ümumiyyətlə, bütün beynəlxalq yahudi təşkilatlarını Azərbaycanın haqlı mövqeyinin dəstəkləmişdir. ABŞ-ın Dövlət Departamenti bu amildən öz mövqelərini yeritmək üçün istifadə edə bilər. Yeganə məsələ isə ABŞ-ın Azərbaycana qarşı təsir etmək cəhdlərinin baş verdiyi bir vaxtda cənab Hoqanın bu vəzifəyə razı olub-olmamasıdır. Necə deyərlər, zaman özü hər şeyi yerbəyer edəcək.

**Rövşən RƏSULOV**

RƏY

## ADP SƏDRİ:

# "İsraildən silah alırıq, əcəb edirik"



ADP sədri Sərdar Cəlaloğlu İran rəsmilərinin Azərbaycan dövlətini "sionistlərlə" işbirliyində ittiham etməsi kimi sərsəm iddialarına sərt cavab verib. Onun sözlərinə görə, İran nəyə görəsə daim dəstək göstərdiyi Ermənistanın ərazisində, eləcə də Rusiyada İsrail səfirliklərinin fəaliyyətinə münasibət bildirmir, amma Azərbaycana gəlincə dərhal İsraildən silah almaq faktını qabardaraq mənasız ittihamlar irəli sürür. SİA xəbər verir ki, "İran bəyanat verir ki, sərhəddə İsrail dövlətini görmək istəmir. Səninlə həmsərhəd olan dövlətlərdə İsrailin səfirliyi var. Zəif elə bizi görmüsünüz?", deyə sual edən Sərdar Cəlaloğlu bu gün İsrailin Türkiyə ilə də münasibətlərinin soyuq olduğunu xatırladıb və Türkiyəni İranla müqayisə edərək Ankaranın Bakıdan Təl-Əviv ilə əlaqələrini kəsməsi tələbini irəli sürmədiyini nümunə olaraq göstərib: "İsraillə Türkiyənin münasibəti daha gərgindir, nəinki İranla İsrailin. Bilirsiniz ki, Türkiyə İsraillə müharibə vəziyyətindədir. Bəs qardaş Türkiyə dövləti Azərbaycana niyə demir ki, İsraillə əlaqələrini kəs?!".

Partiya sədri hesab edir ki, İran Azərbaycanın İsraildən silah alıb erməninin üzərinə getməsinə dözə bilmir. Lakin Bakının bu məsələdə müstəqil və qətiyyətli siyasət yürütməsinin heç kimə heç bir dəxli olmadığını bildirən Sərdar Cəlaloğlu xatırladıb ki, bu gün Azərbaycanın xaricə ixrac etdiyi qazın 40%-ni məhz İsrail dövləti alır, əvəzində isə satır: "Dünyanın ən bahalı silahını alacağam, özümü qoruyacağam, sənə dəxli var? Baxın, Azərbaycanın xaricə ixrac etdiyi qazın 40 faizini İsrail alır. Bizim belə nəhəng ticarət dövriyyəmiz var. İsrailə qaz veririk, əvəzində silah alırıq, əcəb edirik".

ADP sədri bildirib ki, əgər İran bu qədər Ermənistanın halına acıyırsa, o da erməni tərəfinə qaz satsın, eləcə də digər məsələlərdə Azərbaycan İranın daxili işlərinə qarışmırsa, İran da çəkilsin kənara və Azərbaycanın işlərinə müdaxilə etməsin: "İran isə Ermənistana qaz satmır, vətəndaşlarının pulları hesabına yardım edir. Bizim onların işinə qarışmadığımız kimi onlar da bizim işimizə qarışmamalıdırlar", Sərdar Cəlaloğlu bildirib.

# "Müxalifət liderləri uğursuzluğa düçar olublar"

## *Partiya sədri münasibət bildirdi*




"Hər zaman olduğu kimi, yenə də müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq ümid edirlər ki, nə vaxtsa onlar da nəyə isə nail ola biləcəklər. Onların bu arzularının həyata keçməsi isə mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər: "Müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar. Təəccüblü məqam odur ki, həmin liderciklər öz uğursuzluqlarını başa düşsələr belə, yenə bunu büruzə vermək istəmirlər. Bu isə onların faciəsidir. Müxalifətin gördüyü hər bir işin arxasında xarici qüvvələrin göstərişi dayanır. Demək olar ki, müxalifət düşərgəsini təmsil edən şəxslər ancaq xaricdən ötürülən pul və verilən tapşırıqlar əsasında fəaliyyət göstərirlər. Bu gün bunların işi xaricdən gələn pulları müzakirə edərək bölməkdən ibarətdir. Belə olan halda da, xaricdə olan həmin qüvvələrdə öz istəklərini həyata keçirmək üçün bunlardan bir vasitə kimi istifadə edir. Tam şəkildə demək olar ki, müxalifət partiya sədrlərinin əsas işləri satılmaqla xaricdən pul almaqdır, onların başqa siyasətləri yoxdur".

T.Novruzov onu da bildirdi ki, bu gün adı çəkilən partiyaların əsas fəaliyyətləri Azərbaycanın davamlı inkişafına mane olmaq, hakimiyyətə qarşı qara yaxmaqdan ibarətdir: "Onlar cəmiyyətin dəstəyindən tamamilə məhrum olduqlarına görə, məhz bu cür anormal mövqe tutublar. Müxalifət təmsilçiləri özlərini elə bir günə gətirib qoyublar ki, heç kəs onlarla təmas qurmaq istəmir. Müxalifət partiya sıralarında olan şəxslərdə artıq bu partiyaları tərk edib, gedirlər. Bu da liderciklərin əsassız iddialarından və fəaliyyətsizliklərindən irəli gəlir".

**GÜLYANƏ**

# Xarici fondların "xeyir-duası" da müxalifətə kömək etmir

*Yeni reallıqlar əksər müxalifət partiyalarının sıradan çıxacağından xəbər verir*



Azərbaycan müxalifətinin uğur qazanmamasının səbəbləri kimi onların xalqın dəstəyinə deyil, daha çox xarici qüvvələrin siyasi-maddi köməyinə arxalanması dayanır. O düzdür ki, müxalifətə cəmiyyətin hər hansı formada etimadı yoxdur. Bütün hallarda Azərbaycan ictimaiyyətinin dağıdıcı müxalifətə qarşı nifrəti mövcuddur. Səbəbidə, dağıdıcı müxalifət baş bilənlərinin xarici işabazların təlimatına uyğun olaraq milli və dövlətçilik maraqlarına qarşı çıxmalarıdır. Bunu bizlər 44 günlük Vətən müharibəsində açıq şəkildə görə bildik. Müsavat, AXCP, "Milli Şura" rəhbərliyi bir dəfə də olsun Ermənistanı və onları himayə edən ölkələri qınayan bəyanat, açı1lama ilə çıxış etmədilər. Müharibə dövründə ölkənin bütün siyasi partiyaları 8 bəyanat, 2 beynəlxalq təşkilatlara müraciət qəbul etdilər, bu bəyanatları və müraciətləri Əli Kərimli, Arif Hacılı və Cəmil Həsənli imzalamadılar. Hətta ermənilər üzərində tarixi qələbədən sonra siyasi partiyaların təşkil olunan dialoquna sözügedən şəxslər qoşulmadılar.

ANAP-ın sədri Abutalıb Səmədov "Səs" qəzetinə açıqlamasında bildirib ki, hərbi əməliyyatlar ərəfəsində N.Paşinyanın və erməni ordusunun təbliğatçısı kimi çıxış edənlər cəmiyyətin ciddi təpkisi ilə üzləşmədilər: "Çünki əhalinin böyük əksəriyyəti onların söylədiyi fikirlərdən, verdikləri bəyanatlardan xəbərsiz idi. Bu, bir tərəfdən Azərbaycan vətəndaşlarının "Milli Şura" və AXCP liderlərinin fikirlərinə əhəmiyyət verməmələri ilə əlaqədar idisə, digər tərəfdən, siyasi fəaliyyətlə məşğul olan insanların dağıdıcı müxalifət liderlərinin təhlükəli antidövlət, antixalq bəyanatlarını xalqa çatdırmaması ilə bağlı idi. Bu səbəbdən, nə "Milli Şura" sədri C.Həsənlinin "Azərbaycanda Türkiyə bazalarının yerləşdirilməsi məqsədəuyğun deyil" bəyanatı, nə də AXCP sədri Ə.Kərimlinin hərbi əməliyyatlara qarşı çıxış etməsi, erməni ordusunun gücünü "tərənnüm etməsi", "Qarabağ danışıqlarını Avropa Birliyinin çətiri altına keçirmək" kimi təhlükəli təklifi layiq olduğu etirazı görmədi".

A.Səmədov onu da bildirdi ki, 1992-ci ildə populist "vədlərlə" hakimiyyətə gələn AXC verdiyi bəyanatların, götürdüyü öhdəliklərin altında qalaraq əzildi və cəmi bir il hakimiyyətdə qala bildi: "İndi həmin AXC-nin çox kiçik bir parçası olan qurumlar eyni yolu gedir və heç bir məsuliyyət hiss etmədən avantürist fikirlər, ekstremist şüarlar səsləndirməkdən çəkinmirlər. Güman edirəm ki, bu halda dövrəyə hüquq-mühafizə orqanları girməli və qanun pozğunları törədənlər barədə ciddi tədbirlər görülməlidir".

### Xalqdan ayrı düşən radikallar

Bütün bunlar həmin partiya sədrlərinin xalqın və dövlətin maraqlarından tamamilə kənarda qalmağa üstünlük verdiklərini göstərir. Haqlı olaraq da cəmiyyət dağıdıcı müxalifəti sərt şəkildə ittiham edir. Təbii ki, dağıdıcı müxalifətin seçki proseslərindən məğlub ayrılmasının səbəbi onların xalq tərəfindən dəstəklənməməsidir. Baxmayaraq ki, hər seçkiərəfəsi müxalifət hay-küy qaldırır, böyük səs çoxluğu ilə uğur qazanacaqlarını bildirirlər. Ancaq seçki günü acınacaqlı məğlubiyyətə düçar olduqları məlum olur. Hətta xarici qüvvələrin "xeyir-duası", maddi və mənəvi dəstəyi də onlara kömək etmir.

Diqqətçəkən məqam ondan ibarətdir ki, müxalifət seçkidən sonra uğursuzluğa düçar olmalarının səbəbini aydınlaşdırmağa cəhd etmir. Dərk etmək istəmirlər ki, xarici qüvvələrin maddi-siyasi dəstəyilə nəyəsə nail olmaq mümkünsüzdür. Bu, həm də, artıq tarixi reallıqdır.

Azərbaycanın güclü, qüdrətli dövlət olması ictimai-siyasi proseslərə hər hansı kənar qüvvələrin təsir etmək imkanlarını sıfıra endirir. Bütün seçkilərdə son sözü xalq deyir. Xalq əsası qoyulan siyasətin davam etdirilməsinə səs verir, hakimiyyətin mövqelərinin daha da möhkəmlənməsinə öz dəstəyini verir. Xalq-hakimiyyət birliyi 1993-cü ildən bu günə qədər dəyişməyib. Təbii ki, hələ bir neçə onilliklər bu siyasət mövcudluğunu qoruyub, saxlayacaq. Müxalifət isə tarixin arxivinə atılmağa məhkumdur. Çünki cəmiyyət tərəfindən dəstəklənməyən və siyasi proseslərdən tamamilə təcrid olunan partiyalar dağılmağa məhkumdur. Baxmayaraq ki, Ə.Kərimli, C.Həsənli və A.Hacılı xaricdəki "söyüş müxalifəti" ilə koordinasiyaslı fəaliyyət qurmaqla ən azı xarici fondların rəğbətini qazanmağa çalışırlar. Ancaq el məsəlidir, "Qonşunun şamına ümid edən, gecə işıqsız qalar". Dağıdıcı ünsürlərdə nə qədər xarici fondlara və müxtəlif ölkələrdə kök salan söyüş trollarının dəstəyinə, maddi yardımlarına ümid bəsləsələr də istəklərinə çata bilməyəcək. Yəni dağılmağa məhkumdurlar. Dağıdıcı müxalifətlə əməkdaşlıq edən xaricdəki trollarda uğursuz sonluq gözləyir. Çünki hansısa ölkədə oturum izni almaq üçün doğulub, boya-başa çatdığın dövlət haqqında şər və böhtanları səsləndirməklə üzüağlıq qazanmaq olmaz. Gec-tez ya onlar həmin ölkələrdən başqa bir ölkəyə qaçacaqlar, ya da Azərbaycana deportasiya olunacaqlar. Necə ki, söyüş söyənlərdən ən fəali olan Maqsud İbrahimov Azərbaycana deportasiya olundu. Digərləri də, eyni aqibətlə üzləşəcəklər. Onları isə burada məhkəmə qarşısına çıxarılaraq cəza gözləyir. Bu baxımdan da istər xaricdə, istərsə də daxildə olan müxaliflər və onların trolları özlərinə layiq olduqları məqamı əldə edə bilməyəcəklər. Çünki onların adları üstlərindədir - satanlar və satılanlar.

**İ.ƏLİYEV**



## Suverenlik illüziyası ilə müşayiət edilən yoxluq diplomatiyası

**İndi də deyirlər ki, o vaxt Ararat Mirzoyan "pota balası" kimi döyülsə də, amma yenə əməlindən qalmır. Yəni boyundan yuxarı tullanmaqda davam edir. Budur, bu da onun "əməli fəaliyyətinin" nəticəsi, yəni bu gün Ermənistanın xarici siyasətindəki mövcud xaotik və nizamsız vəziyyət daha da pisləşib. Yox, guya Ara Ayvazyan xarici işlər naziri olanda Ermənistanın xarici siyasəti "belə qaranlıq" deyilmiş. Amma Ararat Mirzoyan gəlib hər şeyi bərbad eləyib.**

Ermənilərin dediyinə görə, gör, Mirzoyanla vəziyyət hansı həddə çatıb ki, bu gün heç bir erməni Ermənistan xarici işlər nazirinin müvini olmaq istəmir. Yəni bu gün Ermənistanda az-çox siyasətlə məşğul olan ermənilərin əksəriyyəti Mirzoyanın hansı bilik və qabiliyyətə sahib olduğunu yaxşı bilirlər. Ona görə də, heç kim ona müavin olmaq istəmir deyə, bu gün hələ də müavinləri olmadan "işləyir". Hətta maraqlıdır ki, daha çox arxalandığı baş nazir Nikol da ona müavin tapmaqda hələ ki, çətinlik çəkir.

Ermənilər üçün "ağrılısı" da budur ki, heç bir diplomatik təcrübəsi olmayan Mirzoyan kimi biri bu gün Ermənistanın xarici siyasətini "müəyyən edir". Onlar, bunun erməni tarixində ilk olduğunu deyirlər. Guya bundan əvvəlki erməni diplomatları yalan siyasətlə də olsa, heç olmasa dünyanın diqqətini ermənilər tərəfə yönəldə bilirmişlər. Amma indikilər...

Yəni bu gün Ermənistanda diplomatik təcrübəsi olan mütəxəssislər karyera diplomatının deyil, siyasətçinin nəzarəti altında işləməyə məhkum edilirlər. Təbii ki, bu da xarici əlaqələr sistemindəki qeyri-müəyyənlik və gücsüzlük Ermənistan kimi bir ölkə üçün son dərəcə baha başa gəlir.

...Hər hansı bir sivil ölkə, ingilis dilini yaxşı bildiyinə görə sıfır diplomatik təcrübəsi olan birini ABŞ-a səfir təyin etmək qərarına gələ bilərmi? Təbii ki, ermənilər bu dəfə Lilith Makuntsu hədəfə götürürlər. Deyirlər ki, bu şəxs Vaşinqtona gəldikdən sonra yerli erməni lobbiçilik təşkilatları tərəfindən ümumi boykotla qarşılansa da, amma vəzifəsini daşımaqda israrlı olub. Üstəlik, səfirlik qarşısında dinc nümayiş keçirmək üçün yığılan həmvətənlərini - gənc erməniləri dağıtmaq üçün Amerika polisini də çağırmağı özünə ar bilməyib.

Qeyd edək ki, bu gün ermənilər, təkcə ermənilərmi... Ararat Mirzoyanın erməni siyasətinə rəhbərlik etməsini bu ölkədə kəskin kadr çatışmazlığı ilə əlaqələndirirlər. Bundan əlavə onun ABŞ -ın Ermənistandakı səfirinə çox yaxın olduğu da bildirilir. Bundan əlavə, onun Qərb adamı olduğuna dair güclü inanc olduğu da deyilir.

Yeri gəlmişkən deyim ki, yəqin yadınızda olar: vaxtilə Mirzoyan xarici işlər naziri təyin edilərkən bir çox erməni siyasətçi və erməni diaspor üzvləri biri-birilərinə istehza ilə müşayət edilən belə bir sual ünvanlamışdılar: "...görən, Mirzoyanın xarici işlər naziri təyin edilməsi ilə Ermənistanın xarici siyasətində nə dəyişəcək?"

***Ağasəf Babayev***

# Ermənistanda yenidən aksiyalar baş qaldırır

**"Əvvəla onu qeyd edim ki, Ermənistanda 20 iyun tarixində keçirilən erkən parlament seçkilərinin nəticələri göstərdi ki, erməni xalqı müharibəyə yox deyir, xalq sülh istəyir və revanşistlərin hakimiyyətə gəlməsinin əleyhinədir. Seçkinin nəticələri bunu göstərdi. Hətta bu nəticələr heç də onların Paşinyanı sevdiyi anlamında deyil, sadəcə Paşinyan müharibə etmək niyyətində deyildi. Zatən edə də bilməzdi, artıq o məğlub olmuşdu". Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib.**

Onun sözlərinə görə, lakin revanşistlər, xüsusilə Qarabağ klanı isə bu vəziyyətdən istifadə etmək istəyirdi və indi də onlar ciddi cəhdlə çalışırlar ki, Ermənistanda yenidən aləmi qarışdırsınlar. Bu günləri tam açıqlığı ilə bunu söyləmək olar ki, Ermənistanda faktiki olaraq kim-kimi müharibəsi gedir. Paşinyan artıq Qarabağ klanına, bütövlükdə revanşistlərə qarşı həlledici addımlar atmaqdadır və Paşinyana qarşı olan revanşistlərin Qarabağ klanının iki qanadı var. Biri hərbi qanadı, biri də siyasi qanadı. Hərbi qanadına daxil olan generalların həbsi prosesi getməkdədir və qarşıda hətta keçmiş Ermənistanın prezidenti müdafiə naziri Ohanyanın da həbsi gözlənilir. O Ohanyan ki, Xocalı soyqırımının həyata keçirilməsində əsas hərbi cinayətkarlardan biri olub".

Deputat sözlərinə belə davam edib: "Beləliklə, hərbi qanadı Paşinyan zərərsizləşdirilib. Eyni zamanda, siyasi qanad da bunun fərqindədir, yəni keçmiş prezident Sarkisyan da, Köçəryan da, onun ətrafı da gözəl bilir ki, bir gün növbə onlara da gəlib çatacaq".

"Noyabr ayında artıq Paşinyan əleyhinə ölkədə etiraz dalğasının başlamasını istəyirlər. Amma bunun nə dərəcədə səmərəli olacağını indidən demək çətindir. Ancaq hər halda 20 ilin seçkilərinin nəticələri onu göstərir ki, revanşistlərin və Qarabağ klanının sosial bazası çox məhduddur. Onlar belə etiraz dalğası ilə Paşinyan hakimiyyətini devirmək və Paşinyanın siyasətini dəyişmək iqtidarında deyillər və hesab edirəm ki, xüsusilə də son zamanlar Paşinyan hökumətinin əməkdaşlığı istiqamətində atdığı addımlar onları xeyli qıcıqlandırıb və bu nöqteyi-nəzərdən qarşılıqlı şəkildə Azərbaycan Ermənistan məkanlarını bir-birinə açması onları xeyli qıcıqlandırıb. Əməkdaşlıq istiqamətində atılan addımlar onları xeyli narahat edir".



"Noyabr ayında hesab edirəm ki, revanşistlərin xüsusilə də Qarabağ klanının ölkənin daxilində gərginlik yaratmaqla bağlı cəhdləri olacaq. Amma bu cəhdlərin bir nəticə verəcəyinə inanmıram".

***Ayşən Vəli***

# Rusiyalı ekspert: "İranın Qafqazda təsirini itirməsi Tehranı qıcıqlandırır"

*"Paris Ermənistandakı siyasi qüvvələri revanşist ritorikaya sövq edir və "Türk təhlükəsi" ilə mübarizədə kömək vəd edir. İran da eyni "təhdiddən" danışır"*




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

Moskvada yerləşən Rusiya İslam Dünyası Araşdırmaları Mərkəzinin tarixçi-şərqşünası İsa Cavadov "Caliber" analitik mərkəzinə müsahibəsində regionda baş verən hadisələr və gedən proseslər haqda maraqlı fikirlər səsləndirib, yaranmış vəziyyəti təhlil edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- İranın Azərbaycanla sərhəddə hərbi fəallığının səbəbi nədir?***

- İranın Azərbaycanla sərhəddəki hərbi fəallığı İkinci Qarabağ müharibəsindən sonra, Azərbaycan ordusunun Araz çayı boyunca azadetmə əməliyyatları apardığı vaxtdan qeydə alınıb. Hətta o vaxt İran rəhbərliyi Bakıya ziddiyyətli mesajlar göndərdi və güc nümayiş etdirərək Azərbaycan Silahlı Qüvvələrinin irəliləyiş sürətinə təsir edəcəyinə ümid etdi.

30 il ərzində işğal olunmuş Qarabağ əraziləri, güc boşluğu səbəbindən, müxtəlif qüvvələr tərəfindən qaçaqmalçılıq və qanunsuz ticarət fəaliyyəti daşımaq üçün istifadə edilirdi və dolayı məlumatlara görə, İran tərəfi də istisna deyildi. Bu cəhətdən, Azərbaycanın qələbəsindən sonra beynəlxalq təcrid şəraitində olan İran şimaldakı qanunsuz əməliyyatları üçün mövcud olan"boşluğu" itirdi.

Tehranın uzun müddətdir ki, Türkiyə ilə güclü hərbi ittifaqı olduğu üçün Bakıya iddialarını nəzərə alsaq, Azərbaycanın özünün qələbəsi də müsbət bir şey kimi qiymətləndirilə bilməzdi. İkincisi, regional liderlik uğrunda mübarizədə Türkiyə İranın ənənəvi rəqiblərindən biridir və mövqelərinin fərqliliyi Suriya, İraq və son zamanlar Qafqazda nəzərə çarpır.

Üstəlik, İran özünü Qarabağ münaqişəsinin vasitəçisi kimi göstərə bilmədi və bununla da Qafqazın siyasi proseslərində əhəmiyyətini artıra bilmədi. Azərbaycanla Ermənistan arasındakı ənənəvi "vasitəçi" həmişə Rusiya Federasiyası olub və bu yaxınlarda Türkiyə də sülh nizamlanmasına qoşulub, həmçinin, Azərbaycan və Gürcüstanın layihələrində fəal iştirak edir. Bu səbəbdən İranın bu bölgədəki təsiri və əhəmiyyətinin aşağı olması bu dövləti qıcıqlandıran başqa bir faktora çevrildi.

Bakı ilə Tehran arasındakı münasibətlərin gərginləşməsində son faktor İranın sülhməramlılarının məsuliyyət zonasındakı ərazilərə qaçaqmal yükü çatdırmaq üçün bəzi hissələri Azərbaycandan keçən Gorus-Qafan avtomobil yolunu istifadə etməsi oldu. Bu cür hərəkətlərin arzuolunmazlığını dinc vasitələrlə cənub qonşusuna çatdırmağın mümkün olmadığını anlayan Azərbaycan, öz təhlükəsizlik aparatından istifadə edərək, ərazisinə müxtəlif məhsulların qanunsuz gətirilməsini məhdudlaşdırdı. Əks halda, quldur birləşmələrinin istehkam qura biləcəyi və ya silahlı təxribat törədə biləcəyi materiallar Qarabağa nəql edilə bilər. İran tərəfi, sərhəddəki hərbi təlimlər və yüksək təbliğat bəyanatları ilə bu cür güc nümayişinə səbəb olan siyasətinin növbəti çöküşündən son dərəcə narazı idi.

***- İran xarici işlər nazirinin Rusiyaya son səfəri. Bildiyiniz kimi, Sergey Lavrovla danışıqlar zamanı Azərbaycan əleyhinə ritorika ilə danışdı, amma Rusiya bu mövzuda yanaşmanı bölüşmədi. Səbəbini izah edə bilərsinizmi?***

- Aydındır ki, əvvəlcə İran "Türk təhlükəsi" kartını oynamaq istəyərək Rusiya tərəfinin dəstəyinə arxalanırdı. İran və Rusiyanın Suriyada daha çox təmas nöqtələri olduğu üçün, Türkiyənin iştirakı əleyhinə hökumətyönümlü təşkilatların fəaliyyətinə nəzarət etdikləri üçün belə bir müraciət özlüyündə təəccüblü deyil.

Lakin Tehran Cənubi Qafqazın münaqişələrin həllində tamamilə fərqli bir xüsusiyyətə malik olduğunu nəzərə almadı. Dövlətlər arasında sülhə nail olmaq üçün ən vacib amil nəqliyyat əlaqələrinin, o cümlədən Zəngəzur dəhlizinin blokdan çıxarılmasıdır. Qeyd etmək lazımdır ki, Rusiya bunu öz iqtisadi faydası hesab edərək bu gündəmi fəal şəkildə təbliğ edən ölkələrdən biridir. Azərbaycan və Türkiyə arasında quru əlaqəsi qurulmasını istəmədiyini açıq şəkildə nümayiş etdirən İran, son nəticədə Rusiyanın Qafqazın nəqliyyat inteqrasiyası sahəsində səylərini rədd edir. Üstəlik, atəşkəs rejimini qorumaq prioritet olduqda İranın məntiqsiz və militarist pafosu dağıdıcı görünür və eyni erməni revanşizmini mükəmməl şəkildə tamamlayır. Lakin Rusiya Xarici İşlər Nazirliyi Abdollahianın Azərbaycandakı "sionistlər" və "cihadçılar" haqqında danışdığı nağıllara mənfi fikirlə cavab verdi.

***- Zəngəzur dəhlizinin iqtisadi üstünlükləri nələrdir və onun açılması prosesinə hansı qüvvələr mane olur?***

- Zəngəzur dəhlizinin böyük üstünlüyü, bir neçə ölkə və regionun bir-biri ilə daha rahat əlaqə qura bilməsidir. Bu marşrut Azərbaycan və Türkiyə üçün əhəmiyyəti ilə yanaşı, həm də Rusiya ilə Türkiyəni birləşdirəcək və hər iki ölkənin Şərqi və Cənubi Avropa, Balkanlar və Yaxın Şərqdə iqtisadi maraqlarını irəli sürməsinə imkan verəcək. Bu dəhliz müəyyən dərəcədə Ermənistanın təcrid vəziyyətindən çıxmasına da kömək edir və onu Rusiya ilə əlaqələndirir. Gürcüstan dəhlizi Ermənistan üçün çox məhduddur, çünki Rusiyaya gedən dəmir yolları Abxaziyadakı silahlı münaqişə səbəbindən işləmir və yollar qışda qeyri-sabitdir.





Azərbaycanın özü üçün Zəngəzur dəhlizi, mallarının Naxçıvan və Türkiyəyə çatdırılması üçün vaxt və maliyyə mənbələrində əhəmiyyətli bir azalmadır, çünki digər halda Gürcüstan və İran marşrutlarından istifadə etmək lazımdır.

Ancaq bütün bu müsbət cəhətlərə baxmayaraq, Zəngəzur dəhlizinin bir çox rəqibi var və beynəlxalq aləmdə belə bir yanaşma yeni deyil. Hələ 1918-1919-cu illərdə, Azərbaycan Naxçıvanın və Zəngəzurun azad edilməsi uğrunda müharibə aparanda və Şərqi Anadoluda türk milli hərəkatı yarandığı zaman, bir sıra ingilis, fransız və amerikalı qəzetlər bu torpaqlar arasında quru əlaqəsinin olduğunu vurğulamışlar. Osmanlı İmperiyası və Azərbaycan, Antanta ölkələrinin maraqlarını təhdid edən "panturanist və panislam ittifaqlarının" yaranmasına səbəb ola bilərdi. Azərbaycanla Türkiyə arasında böyük bir məsafə yaratmaq məqsədi ilə əksəriyyətinin müsəlman əhalisi olduğu geniş ərazilərin süni şəkildə Ermənistana ayrılması lazım idi.

Bir əsr sonra, iki ölkə arasında birbaşa quru əlaqəsi yaranması ideoloji qorxusu bu gün də aktualdır. Fransanın bu gün də eyni mövqedə necə durduğunu müşahidə edə bilərik, Paris Ermənistandakı siyasi qüvvələri revanşist ritorikaya sövq edir və "Türk təhlükəsi" ilə mübarizədə kömək vəd edir. İran eyni "təhdiddən" danışır, Qafqazdakı regional rəqibi ilə məşğul olmaq istəmir. Bundan əlavə, İran üçün Zəngəzur dəhlizinin açılması Azərbaycanın üzərindəki rıçaqların itirilməsi deməkdir, çünki Bakının Naxçıvanı təchiz etmək üçün artıq İran yollarına ehtiyacı olmayacaq.

İran mediasında Zəngəzur dəhlizinin açılmasının İran-Ermənistan sərhəddində Azərbaycanın nəzarətinin qurulması demək olacağı qorxusu ifadə olunur. Rusiya tərəfinin dəhlizin işləməsinə və təhlükəsizliyinə cavabdeh olacağını nəzərə alsaq, bu cür bəyanatların nə dərəcədə əsaslı olduğu, Tehranın təbliğatçılarının düşünməli olduğu bir sualdır.

Ermənistan öz ərazisini yeni nəqliyyat qovşağı ilə təmin etmək məsələsində oxşar narahatlıqları rəhbər tutur. Eyni zamanda, Bakının artıq Laçın dəhlizini açması və erməni tərəfi üçün Gorus-Qafan avtomobil yolunun Azərbaycan hissələrindən sərbəst keçid etməsinə şərait yaratması tamamilə nəzərə alınmır.

Rusiya tərəfinə gəlincə, bu mövzuda ciddi irəliləyişin olmamasının Azərbaycanı bir daha problemin hərbi yolla həllinə məcbur edə biləcəyi narahat edir. Belə bir dəhliz ideyasının özü heç bir şəkildə Rusiyanın maraqlarına zidd deyil və hətta əksinə, Moskva əslində 10 noyabr 2020-ci ildə təklif etdiyi üçtərəfli bəyanat çərçivəsində onun təşəbbüskarıdır.

***- Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması perspektivini necə qiymətləndirirsiniz?***

- Tam hüquqlu sülh müqaviləsinin imzalanmasından hələ çox uzaqdır və onun taleyi bir çox cəhətdən siyasi böhran vəziyyətinin hələ də müşahidə olunduğu Ermənistanda baş verənlərdən asılıdır və hakimiyyət Azərbaycanla münasibətlər barədə dəqiq mövqe ortaya qoya bilmir. İrəvanda nazirliklərin və digər idarələrin yaxşı qurulmuş işi yoxdur, çünki onların hər biri prosesləri özünəməxsus şəkildə şərh edir.

Bayaq dediyim kimi, Ermənistan tərəfi üçtərəfli bəyanatın həyata keçirilməsinə kifayət qədər sərmayə qoymur. Əgər Azərbaycan artıq öz magistral yollarını Ermənistan vətəndaşları üçün təmin edirsə, Ermənistan Zəngəzur dəhlizinin açılmasını çox gecikdirir. Erməni icması hesab edir ki, bölgədə yalnız bir tərəf üçün rahat şərait yaradılmalıdır. Eyni şəkildə, sülhməramlı qüvvələrin yerləşdirilməsi ilə paralel olaraq qoşunlarını Qarabağdan çıxarmaq və sərhədi delimitasiya etmək öhdəlikləri ilə bağlı Ermənistanın hərəkətləri şübhə doğurur.

Aydındır ki, 2020-ci ilin noyabrında baş verən tam məğlubiyyətdən sonra belə, erməni siyasi dairələri əhalini səfərbər etmək üçün əlverişli şovinist ambisiyalarından hələ də əl çəkə bilmir. 2020-ci ilə qədər olduğu kimi, Ermənistanın taktikası öhdəliklərini yerinə yetirməmək üçün həll prosesini gecikdirmək və status-kvonu dəyişmək ola bilər. Bu məqsədlə İrəvan, istər İran, istər Fransa, istərsə də ABŞ olsun, öz tərəfinə yeni bir müdafiəçi cəlb etməyə çalışır.

Buna baxmayaraq, 30 illik sükutla müqayisədə müsbət meyillər var. Zaman zaman Ermənistan rəhbərliyi Azərbaycan və Türkiyə ilə iqtisadi əməkdaşlığa hazır olması, 3 + 3 platformasına qoşulmaq istəyi ilə bağlı bəyanatlar verir, eyni zamanda Azərbaycanın Gorus-Qafan avtomobil yolunda iştirak hüququnu tanıyır.

Buna görə də, sülh müqaviləsinin imzalanması prosesini sürətləndirmək üçün bütün maraqlı ölkələr Qafqazda iqtisadi əməkdaşlığın üstünlüyü ilə bağlı məlumatlandırma işini davam etdirməlidirlər. Ermənistanın ümidsiz ittifaqlar və ərazi iddiaları yerinə sülh və firavanlıq ehtiyacını dərk etməsi vacibdir.

***Tərcümə - Elçin Bayramlı***



# Messi bunu bacaran ilk Cənubi amerikalı futbolçudur

**Futbol üzrə Argentina millisinin futbolçusu Lionel Messi DÇ-2022-nin seçmə mərhələsində Uruqvayla matçda (3:0) daha bir rekord qırıb. Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, oyunun 38-ci dəqiqəsində hesabı açan 34 yaşlı hücumçu millidə 80-ci qolunu vurub. Bununla da, o, Cənubi Amerika futbolçuları arasında yığmada 80 qol vuran ilk oyunçu olub.**

Qeyd edək ki, Messi Cənubi amerikalı bombardirlər siyahısında braziliyalı Pele (77 qol) və Neymarı (69), həmçinin uruqvaylı Luis Suaresi (64) qabaqlayır.

# "NEQSOL Holding"in "Rəqəmsal İpək Yolu" layihəsi "Submarine Networks World 2021" konfransında təqdim edilib

"NEQSOL Holding"in tərkibində olan "AzerTelecom" şirkəti tərəfindən icra edilən və Avropanı Orta və Cənubi Asiyaya bağlayacaq rəqəmsal telekommunikasiya dəhlizinin formalaşmasını nəzərdə tutan "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsi 29 sentyabr-01 oktyabr tarixlərində Sinqapurda keçirilmiş "Submarine Networks World 2021" konfransında təqdim edilib. Qlobal olaraq sualtı infrastrutura malik dünyanın ən nüfuzlu və qabacıl telekommunikasiya, eləcə də texnologiya şirkətlərini təmsil edən 100-dən çox çox məruzəçinin iştirakı ilə keçirilmiş nüfuzlu konfrans bu il virtual formatda baş tutub.

"AzerTelecom" şirkətinin Baş icraçı direktoru Ana Nakaşidze konfransda iştirak edərək "Göllər və dənizə çıxışı olmayan ölkələr" adlı paneldə məruzəçi qismində çıxış edib. Ana Nakaşidze "NEQSOL Holding" tərəfindən təşəbbüs olunmuş və "AzerTelecom" şirkəti tərəfindən icra olunan, Avropa ilə Asiya arasında Gürcüstan və Azərbaycan vasitəsilə rəqəmsal telekommunikasiya dəhlizinin formalaşmasını hədəfləyən "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsi haqqında danışıb.

O göllərin ətrafında yerləşən və dənizə çıxışı olmayan ölkələr arasında bağlantı əlaqələrinin qurulmasının çətinliklərini qeyd edərək layihənin icrasında əsas çağırışları vurğulayıb. Bildirilib ki, "Rəqəmsal İpək Yolu" layihəsi bağlantı xidmətlərinin inkişafı nöqteyi nəzərindən yeni imkalar yaradır və bu baxımdan bütün region üçün mühüm əhəmiyyət kəsb edir.

""Rəqəmsal İpək Yolu" layihəsi və onun Xəzər dəniz komponenti olan və Xəzər dənizinin dibi ilə Azərbaycan və Orta Asiya ölkələri arasında çəkiləcək "Transxəzər Fiber Optik Kabel Xətləri" data trafkinin artımına əhəmiyyətli töhfə verəcək və bütün regonun internet bağlantısı ilə daha yaxşı təmin olunması baxımında yeni imkanlar açacaq" - deyə Ana Nakaşidze bildirib.




"AzerTelecom" haqqında: "AzerTelecom" Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur. Şirkət müxtəlif sahələrdə və ölkələrdə fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir. "AzerTelecom" Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. Şirkət Avropanı Orta və Cənubi Asiyaya bağlayan irimiqyaslı rəqəmsal infrastruktur layihəsi olan "Rəqəmsal İpək Yolu" layihəsini icra edir. 2020-ci ildə "Rəqəmsal İpək Yolu" layihəsi ABŞ-da keçirilən "Qlobal Strateji İnfrastruktur Liderlik Forumu"nda (Global Strategic Infrastructure Leadership Forum) Asiyada beş ən yaxşı strateji infrastruktur layihələrindən biri kimi seçilib.

# Xaricdə təhsil almaq istəyən şəxslərə xəbərdarlıq!

**Baş Prokurorluq xaricdə təhsil almaq adı ilə dələduzluq edən şəxslərlə bağlı vətəndaşlara müraciət edib. Qurumun Mətbuat Xidmətindən SİA-ya verilən məlumatda bildirlir ki, son zamanlar xaricdə təhsil almaq adı altında vətəndaşların müxtəlif məbləğlərdə pulunun dələduzluq yolu ilə ələ keçirilməsi halları artıb. Prokurorluq orqanları tərəfindən bu kimi neqativ halların aradan qaldırılması, belə təqsirkar şəxslərin aşkar olunaraq məsuliyyətə cəlb olunmaları istiqamətində kəsərli tədbirlər həyata keçirilir.**



Diqqətinizə çatdırırıq ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi xaricdə təhsil sahəsində, o cümlədən tanınma prosedurları ilə bağlı heç bir şirkətlə əməkdaşlıq etmir və bu şirkətlərin fəaliyyətlərinə görə heç bir məsuliyyət daşımır.

Eyni zamanda bildiririk ki, xarici ali təhsil ixtisaslarının tanınmasına fərdi qaydada baxıldığı üçün müvafiq ali təhsil sənədi əsasında Təhsildə Keyfiyyət Təminatı Agentliyinə müraciət etməyiniz zəruridir. Azərbaycan Respublikasının Baş Prokurorluğu vətəndaşlara müraciət edərək, bu kimi dələduzluq halları ilə qarşılaşdıqda dərhal 961 nömrəli Çağrı Mərkəzi, 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzi, o cümlədən Baş Prokurorluğun sosial şəbəkələrdəki səhifələri vasitəsilə məlumat verilməsini xahiş edir.



# "Aşiq olmaq bir insanla fərqli bir dünyaya sahib olmaq deməkdir"

"Kanal D"dəki "Baht Oyun"u serialının Tuğçesi Aslı Sümen, "Women Shine" jurnalına verdiyi müsahibədə aşiq olduğunu və xoşbəxt olduğunu söyləyib. SİA xarici mətbuata istinadən xəbər verir ki, aktrisa bu barədə açıqlama verib. O, "Sevgi gözəldir. Çox güclü hissdir. Aşiq olmaq bir insanla fərqli bir dünyaya sahib olmaq deməkdir. Bu böyük bir imtiyazdır" deyib.

*Ayşən Vəli*



# Xərçəng şişlərini məhv edən dərman tapıldı

**Londonda Xərçəng Araşdırmaları İnstitutu (ICR) və Royal Marsden tədqiqatçıları əsaslı bir araşdırma aparıblar. "İki sahil" xəbər verir ki, mütəxəssislər immunoterapiya dərmanlarından ibarət bir kokteylin ölümcül xəstələrdə şişləri məhv edə biləcəyini kəşf edib. Belə ki, immunoterapiya dərmanlarından hazırlanan kokteyl xəstələrin immunitet sistemindən istifadə edərək, xərçəng hüceyrələrini öldürür.**

Elm adamları, nivolumab və ipilimumab dərmanlarının birləşməsinin, laringeal xərçəngi olan xəstələrdə şiş ölçüsünün azalması ilə nəticələndiyini təsbit ediblər. Mütəxəssislər, iki immunoterapiya dərmanının birləşməsinin müxtəlif inkişaf etmiş xərçəng növlərinə qarşı təsirli bir yeni silah ola biləcəyini düşünürlər. Dərman birləşməsinin digər sınaqlarının nəticələri əvvəllər böyrək, dəri və bağırsaq xərçəngi olan xəstələr üçün də eyni faydaları göstərilmişdi.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**